www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 29 iyul 2016-cı il Cümə № 164 (6485) Qiymәti 60 qәpik

**Xəbər**

**Peşəkar üzgüçü Sumqayıtda hovuzda boğuldu**

yazısı səh.15-də

**Gündəm**

**Referendumdan sonra növbədənkənar prezident seçkisi -iddia**



Hakimiyyətə yaxın siyasətçilərdə və müxalifət liderlərində "ölkə növbədənkənar seçkiyə gedəcək" rəyi güclənir

yazısı səh.7-də

**Hökumət riskə gedir: 5 milyard borc...**

yazısı səh.10-da

**Vergilər Nazirliyi Abbas Bağırovun ittihamlarına cavab verdi**

yazısı səh.12-də

**Azərbaycan astroloqları NASA-ya lağ etdilər-səbəb**

yazısı səh.13-də

**"SOCAR Türkiye" rəhbərliyində dəyişiklik - rəsmi**

yazısı səh.3-də

**Qarabağ Azadlıq Təşkilatı aksiya xəbərdarlığı etdi**

yazısı səh.6-da

**Bu gün ali məktəblərə ixtisas seçimi başlayır**

yazısı səh.2-də

**Qərb Türkiyənin ardınca İranı da qarışdırır**

yazısı səh.8-də

**Qarabağda sülhün "donu" açılacaqmı?**

yazısı səh.11-də

**Tehran qaza görə Ermənistanı seçdi**

yazısı səh.10-da

**Deputatlardan baş nazirlə bağlı çağırış**

yazısı səh.7-də

**Mağazalarda alıcıların sayı azalıb**

yazısı səh.12-də

**Bütün taksilərdə eyni qiymət olacaq**

yazısı səh.15-də

## Ermənistandakı kritik proseslərin labüd diktəsi

# SƏRKİSYAN İSTEFAYA HAZIRLAŞIR - "MOSKVANI DA BEZDİRİB..."

İrəvanda polis binasına silahlı basqından sonra başlanan gərginlik davam edir; işğalçı ölkədə hakimiyyət dəyişikliyi nə vəd edir? İqtidara gələcək istənilən qüvvə Rusiya ilə hesablaşmaq zorundadır, çünki...; **Kremlə yaxın ekspert:** "Ermənistan partlayış həddindədir"




yazısı səh.9-da

## Şirvandakı partlayışın səsi icra başçısına ölkə xaricində çatıb

Mərdan Camalovun məzuniyyətini yarıda qoyub geri döndüyünü Şirvan İcra Hakimiyyətindən təsdiqlədilər; partlayış baş vermiş mərkəz haqda yeni bilgilər

yazısı səh.3-də



Rail Rzayev

**Öldürülən generalın köməkçisini yenidən həbs etmək istəyirlər**

yazısı səh.4-də



**Cahangir Hacıyevdən maliyyə nazirinə yeni həmlə**

yazısı səh.4-də



Emin Hüseynov

**"Səfirliyin binasına getdiyim gün məni anam da görsə tanımazdı..." - mühacir jurnalistdən heyrətamiz açıqlamalar**

yazısı səh.5-də




## Referendum öncəsi təşviqat kampaniyasının tarixi açıqlanıb

**Referendum üzrə qeydə alınmış təşviqat qrupları tərəfindən referendum öncəsi təşviqat kampaniyasının aparılacağı tarix açıqlanıb.**

APA-nın məlumatına görə, Mərkəzi Seçki Komissiyasının (MSK) qərarı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər məqsədi ilə 2016-cı il sentyabrın 26-na təyin edilmiş ümumxalq səsverməsinin (referendum) hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin təqvim planında qeyd olunub ki, referendum qabağı təşviqatın aparılması səsvermə gününə 23 gün qalmış, 2016-cı il sentyabrın 3-də başlanır və səsvermənin başlanmasına 24 saat qalanadək, sentyabrın 25-i saat 8.00-da dayandırılır.

Qeyd edək ki, iyulun 18-də Azərbaycan prezidenti tərəfindən "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Referendum Aktı layihəsi rəy verilməsi üçün Konstitusiya Məhkəməsinə göndərilib. Konstitusiya Məhkəməsinin Plenumu Konstitusiya Məhkəməsi Referendum Aktına rəy verib. Prezident İlham Əliyev Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi məqsədilə ümumxalq səsverməsi (referendum) keçirilməsi haqqında sərəncam imzalayıb. Sərəncamla referendum 2016-cı il sentyabrın 26-na təyin edilib.

Mərkəzi Seçki Komissiyasına ümumxalq səsverməsinin (referendumun) göstərilən tarixdə keçirilməsini təmin etmək tapşırılıb.

## Hava küləkli və yağışlı olacaq

**İyulun 29-da Bakıda və Abşeron yarımadasında hava şəraitinin buludlu olacağı, arabir yağış yağacağı gözlənilir.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən məlumata görə, gecə və səhər yarımadanın bəzi yerlərində yağıntının intensiv olacağı ehtimalı var. Günün ikinci yarısında hava dəyişkən buludlu olacaq. Şimal-qərb küləyi əsəcək, gecə və səhər arabir güclənəcək.

Havanın temperaturunun gecə 20-23 dərəcə isti, gündüz 25-29 dərəcə isti, Bakıda gecə 21-23 dərəcə isti, gündüz 26-28 dərəcə isti olacağı gözlənilir.

Atmosfer təzyiqi 759 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət 75-85 % təşkil edəcək.

Abşeron çimərliklərində dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulbada 21-22 dərəcə, Buzovna, Mərdəkan, Şüvəlanda 22-23 dərəcə, Türkan, Hövsan, Sahil, Şıxda 24-25 dərəcə isti olacaq.

## Roma papası Polşada dini ayin zamanı huşunu itirdi

**Roma Papası Fransisk Polşada dini ayinin icrası zamanı huşunu itirərək yıxılıb.**

Bu barədə "Associated Press" agentliyi məlumat yayıb.

Papa yıxıldıqdan sonra ətrafdakı din xadimləri onun köməyinə yetişiblər. Bundan sonra Papa nitq söyləyib. Hadisənin səbəbləri barədə hələlik məlumat verilmir. Qeyd edək ki, Roma papası iyulun 26-31 tarixlərində Krakovda keçiriləcək "Ümumdünya gənclər günü" ilə bağlı Polşaya səfər edib.

79 yaşlı Fransisk 2013-cü ilin martından katolik kilsənin rəhbəridir.

## Türkiyədə məşhur hotellər şəbəkəsinin sahibi də saxlanıldı

**15 iyul tarixində Türkiyədə baş verən çevriliş cəhdi ilə bağlı həbslər davam edir. Virtualaz.org Türkiyə mətbuatına istinadən xəbər verir ki, Fətullahçı Terror Təşkilatının (FETÖ) dövlət çevrilişi cəhdi ilə əlaqədar olaraq Antalyadakı "Delphin" hotellər şəbəkəsinin sahibləri Tolqa Cömertoğlu, Alper Cömertoğlu və əmiləri Üfüq Cömertoğlu da saxlanılıblar. Evlərində axtarışlar aparılan şübhəlilər ifadələri alınmaq üçün idarəyə aparılıblar.**

Milli.az xatırladır ki, Tolqa Cömertoğlu çevriliş cəhdindən sonra şəxsi tvitter hesabında "Təəssüflər olsun. Vətən xainliyi başqa, qatillik başqa... Videoları izlədikcə üsyan edirəm, günahsız insanlara, silahsızlara necə qıymaq olar?" yazmışdı.

# Bu gündən bütün qruplar üzrə ali məktəblərə ixtisas seçimi başlayır

**Bu gündən Azərbaycanın ali məktəblərinə bütün ixtisas qrupları üzrə (I-V qruplar) ixtisas seçimi başlayır. APA-nın xəbərinə görə, ixtisas seçimi 29 iyul-10 avqust tarixlərində aparılacaq.**



2016/2017-ci tədris ili üçün I, II, III və IV ixtisas qruplarının müsabiqəsində (ixtisas seçimində) ümumi balı 200-dən, hər bir imtahan fənni üzrə ayrılıqda topladığı nisbi balı 10-dan az olmayan abituriyentlər iştirak edə bilər. Ümumi balı 350 və daha çox olan abituriyentlərin müsabiqəyə buraxılmaları üçün onların fənlər üzrə cavablarına nisbi bal məhdudiyyəti tətbiq olunmur. Dövlət sifarişi əsasında ayrılmış yerlərin ixtisas seçimində ümumi balı 250-dən və hər bir imtahan fənni üzrə ayrılıqda topladığı nisbi balı 10-dan az olmayan abituriyentlər iştirak edə bilərlər.

Bu il I-IV qruplar üzrə keçirilən qəbul imtahanlarında 78545 abituriyent iştirak edib və onlardan 34 385-i 200 və daha yuxarı bal toplayaraq müsabiqədə iştirak etmək imkanı qazanıb. Belə ki, cari il I ixtisas qrupu üzrə imtahanda iştirak edən 31397 abituriyentdən 11406-sı, II ixtisas qrupu üzrə 22135 abituriyentdən 10621-i, III ixtisas qrupu üzrə 19673 abituriyentdən 9535-i, IV ixtisas qrupu üzrə isə 5340 abituriyentdən 2823-ü ixtisas seçimində iştirak edəcək.

I ixtisas qrupu üzrə "Riyaziyyat", "Fizika", "Nəqliyyat tikintisi mühəndisliyi", "İnşaat mühəndisliyi", "İnformasiya texnologiyaları", "Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi" ixtisasları üzrə müsabiqədə ümumi balı 250-dən az olmayan 8741 abituriyent, "Kompüter elmləri" və "Geologiya" ixtisasları üzrə müsabiqədə isə ümumi balı 300-dən az olmayan 6504 abituriyent ixtisas seçimində iştirak edəcək.

Bu il I ixtisas qrupu üzrə "Aqromühəndislik", "Torpaqşünaslıq və aqrokimya", "Balıqçılıq və balıqçılıq təsərrüfatı işi", "Meşəçilik", "Aqronomluq", "Zootexniklik", ixtisaslarının, həmçinin Azərbaycan Dövlət Aqrar Universitetinin "Meliorasiya və su təsərrüfatı tikintisi mühəndisliyi" ixtisasının, IV ixtisas qrupu üzrə isə "Baytarlıq", "Su bioehtiyatları və akvabitkilər" ixtisaslarının, həmçinin Azərbaycan Dövlət Aqrar Universitetinin "Ekologiya" və "Əczaçılıq" ixtisaslarının həm dövlət sifarişi üzrə, həm də ödənişli əsaslarla ayrılmış yerlərin ixtisas seçimində ümumi balı 150-dən az olmayan abituriyentlər də (fənlər üzrə cavablara nisbi bal məhdudiyyəti tətbiq olunmur) ixtisas seçimində iştirak edə biləcəklər.

I ixtisas qrupu üzrə keçirilən qəbul imtahanında 14 808 abituriyent, IV ixtisas qrupu üzrə qəbul imtahanında isə 3223 abituriyent 150 və daha yüksək nəticə göstərərək müsabiqədə iştirak etmək imkanı qazanıb. Ümumilikdə I və IV qruplar üzrə 150-dən yuxarı bal toplayan 18 031 abituriyent ixtisas seçimində iştirak edəcək.

V ixtisas qrupunda qabiliyyət imtahanı üzrə yekun nəticəsi və test imtahanında topladığı ümumi balı TQDK tərəfindən müəyyən edilmiş tələblərə uyğun olanlar ixtisas seçimində iştirak edəcəklər.

## Bakıda səfirliyə məxsus maşın qəzaya düşdü: iki nəfər yaralandı

**Bakıda səfirliyə məxsus avtomobil qəzaya düşüb. "Report"un xəbərinə görə, paytaxtın Nəsimi rayonu, H.Əlesgərova küçəsi ev 15-in qarşısında Bakı şəhər sakini, 26 yaşlı Mehri Süleymanovanın idarə etdiyi "Chevrolet" markalı və Mərakeş Krallığı vətəndaşı, 30 yaşlı Muhammed Briouelin idarə etdiyi "Hyundai" markalı avtomobillər toqquşub.**

Hər iki sürücü xəsarət alıb. Yaralılar Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunda tibbi yardım aldıqdan sonra evə buraxılıblar.

Qeyd edək ki, "Hyundai" markalı avtomobil Mərakeş Krallığının Azərbaycandakı səfirliyinə məxsusdur.

## İnanclı məhbus ailələri konfrans keçirib

**Siyasi və vicdan məhbusu kimi tanınan inanclı dustaq ailələri konfrans keçirib. Musavat.com cenub-news.com-a istinadən xəbər verir ki, konfransda həbsdə olan ilahiyyatçıların və dindarların ailələri iştirak edib. Mövzu ətrafında çıxışlar olub. Konfransda həmçinin məhbuslardan bəhs edən videoçarx da nümayiş etdirilib.**

Tədbirin sonunda bəyanat qəbul edilib. **Bəyanatda deyilir:** "2011-ci ildən bu günədək bir çox vicdan məhbusu haqsız olaraq hələ də dustaq həyatı yaşamaqdadır. Onlar cəmiyyətdə mövcud olan ədalətsizliyi, ayrı-seçkiliyi, məmur özbaşınalığını, haqsızlığı pisləyiblər. Bu haqsızlıqlar ölkəmizdə dini inanclarla bağlı hər hansı qadağanın olmaması və ölkəmizin tolerantlıq ənənələrinə, mədəniyyətlər və sivilizasiyalararası dəyərlərə mühüm töhfələr verdiyi, 2016-cı ilin Azərbaycanda "multikulturalizm ili" elan edildiyi bir halda yenə də davam edir. Biz bu haqsızlığı məmurların özbaşınalığı və onlar tərəfindən konstitusiyamıza və qanunlarımıza bir hörmətsizlik kimi qiymətləndiririk. Bizim yaxınlarımız da sırf bunlarla bağlı öz etirazlarını haqlı olaraq bildiriblər. Bu qədər dindar ailə, məmur özbaşınalığı ucbatından illərlə əziyyət çəkməyə məhkum edilirsə, heç bir tolerantlıq, vəhdət və vətənpərvərlik ruhundan söhbət gedə bilməz".

Vicdan məhbuslarının ailələri və onları dəstəkləyən xanımlar sonda əlaqədar qurumlardan öz hüquq və azadlıqlarını tələb etdiyinə görə qondarma ittihamlarla tutularaq həbsə atılmış və beynəlxalq hüquq təşkilatları tərəfindən siyasi və vicdan məhbusu kimi tanınmış bütün inanclı şəxslərin və digər ictimai fəalların tezliklə azad olunmasını tələb ediblər.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

## TANAP-ın bir hissəsini Malayziya şirkəti tikəcək

**TANAP konsorsiumu Malayziyanın "Sapura Kencana" şirkəti ilə müqavilə imzalayıb.**

"APA" Türkiyə mətbuatına istinadən xəbər verir ki, Malayziya şirkəti TANAP layihəsinin Çanaqqala boğazından keçən 18 km uzunluğunda olan hissəsində tikinti işlərini həyata keçirəcək. Şirkət bununla bağlı keçirilən müvafiq tenderin qalibi olub.

Qeyd edək ki, TANAP-ın tikintisinə 2015-ci ildə başlanılıb. İllik 16 mlrd. kubmetr Azərbaycan təbii qazını Türkiyəyə çatdıracaq kəmərin uzunluğu 1 800 km təşkil edəcək.

TANAP-da şirkətlərin iştirak payı aşağıdakı kimidir: SOCAR - 58%, BP - 12%, BOTAŞ - 30%.

## Abdulatipov Dərbənd-Bakı qatarının işə salınmasını təklif etdi

**Dağıstanın rəhbəri Ramazan Abdulatipov Dərbənd-Bakı dəmir yolu qatarının istismara verilməsini təklif edib.**

"İnterfaks" agentliyi xəbər verir ki, muxtariyyət rəhbəri bu təkliflə Şimali Qafqaz dəmir yolunun rəisi Vladimir Pyastolovla görüşündə çıxış edib.

"Dəmir yolu infrastrukturunun və Azərbaycanla sərhəddə yerləşən keçid məntəqəsinin tikintisinə başlamaq lazımdır. Bundan başqa, mən Dərbənd-Bakı marşrutu üzrə dəmir yolu qatarının işə salınmasını təklif edirəm", - deyə o bildirib.

## Ərəblər Azərbaycanda nə qədər pul xərcləyir?

**Son iqtisadi proseslər fonunda Birləşmiş Ərəb Əmirliklərindən (BƏƏ) olan turistlər nisbətən aşağı büdcəli marşrutlar seçməyə başlayıblar.**

APA bildirir ki, bu barədə yerli turizm şirkətləri məlumat verib.

"Artıq BƏƏ-dən olan turistlər məzuniyyətini dənız kənarında keçirmək niyyətində deyil. Onlar indiyədək olmadıqları ölkələri və şəhərləri kəşf etmək istəyirlər. Daha çox Sinqapur, Tailand, Malayziya, Maldiv adaları, Azərbaycan, Gürcüstan kimi ölkələr populyardır", - deyə turizm şirkətlərindən birinin rəhbəri bildirib.

Aşağı büdcəli marşrutlar arasında Azərbaycan və Gürcüstan göstərilib. Bildirilir ki, Azərbaycanda istirahət ərəblərə 490 dollara, Gürcüstanda isə 430 dollara başa gələcək.

YENİ MÜSAVAT
N 164 (6485) 29 iyul 2016

**Şirvanda 1 il 20 gün fərqlə baş verən 2 güclü partlayışı birləşdirən məqam rayonun icra başçısı Mərdan Camalovun hər iki hadisə zamanı məzuniyyətdə olması faktıdır. 2015-ci il iyulun 6-da Şirvandakı "Telemexanika" zavodunda baş verən, 1 nəfərin ölümü, 19 nəfərin yaralanması ilə nəticələnən güclü partlayışdan sonra məlum olmuşdu ki, icra başçısı məzuniyyətdədir. Həmin vaxt Şirvan Şəhər İcra Hakimiyyətindən başçı Mərdan Camalovun ölkədən kənarda istirahət etdiyini demişdilər.**


Mərdan Camalov

# Şirvandakı partlayışın səsi icra başçısına ölkə xaricində çatıb

## Mərdan Camalovun məzuniyyətini yarıda qoyub geri döndüyünü Şirvan İcra Hakimiyyətindən təsdiqlədilər; partlayış baş vermiş mərkəz haqda yeni bilgilər

"Mərdan Camalova baş vermiş hadisə haqda məlumat verilib. Məzuniyyətdə və xaricdə olmasına baxmayaraq, öz müavinləri və Şirvanın müvafiq qurumlarının rəhbərləri ilə əlaqə saxlayır, lazımi tapşırıqlar verir" -deyə bildirmişdilər.

2016-cı il iyulun 26-da baş verən, miqyasına, ölən və yaralananların sayına görə 1 il 20 gün əvvəlki partlayışı geridə qoyan dəhşətli partlayışdan sonra da məlum oldu ki, Mərdan Camalov Şirvanda yoxdur. Yenə də məzuniyyətdə, ölkə xaricindədir. Hətta bəziləri hər iki partlayış zamanı başçının xaricdə olması ilə əlaqə axtarmağa da başlayıblar.

**Başçının partlayışlar zamanı ölkə xaricində olması bir təsadüfdürmü?**

Bu və digər suallarla Şirvan İcra Hakimiyyətinə müraciət etdik. Suallarımızı dinləyən icra başçısının 1-ci müavini **Samid Abıyev** dedi ki, M.Camalov artıq ölkəyə qayıdıb: **"Mərdan müəllim məzuniyyətini yarımçıq qoyub geri döndü, bu gündən *(dünəndən-red.)* işə çıxıb".**

S.Abıyev baş vermiş partlayışla bağlı Şirvan İcra Hakimiyyətində iclas keçirildiyini də bildirdi. Suala cavab olaraq dedi ki, iclasa Mərdan Camalov rəhbərlik etmir.1-ci müavin bunun səbəbini izah etmədi. İclasda olmasını əsas gətirərək digər suallarımızı cavabsız buraxdı.

**MSN yaralıları diqqətdə saxlayır**

"Araz" zavodunda baş vermiş hadisə nəticəsində xəsarət alanların səhhəti Müdafiə Sənayesi Nazirliyi tərəfindən diqqətdə saxlanılır. Bu barədə "Trend"ə nazirlikdən məlumat verilib. Bildirilir ki, həkim nəzarətində müalicələri davam etdirilən 3 nəfərdən biri də evə buraxılıb, 2 işçinin isə müalicəsi davam edir...

"Araz" zavodunun tərkibindəki döyüş sursatlarının utilizasiya mərkəzi 2013-cü ildən fəaliyyətə başlayıb. Hərbi bazalarda saxlanılan və istifadə olunmayan bütün



növ döyüş sursatları istehsalçı tərəfindən verilən zəmanətli saxlanma müddəti bitdikdən sonra utilizasiya edilməsi üçün mərkəzə təhvil verilir. İnternetdəki açıq mənbələrdə "Araz" zavodunda utilizasiya mərkəzinin açılışı haqda məlumatlar yer alır.

**Həmin məlumatda deyilir:**

"Şirvandakı "Araz" zavodunda döyüş sursatlarının utilizasiya mərkəzi yaradılıb. Müdafiə sənayesi naziri Yavər Camalov bildirib ki, Polşanın "Yakuş" şirkəti ilə birlikdə yaradılan mərkəzin ümumi sahəsi 12 hektardır. Mərkəz xüsusiyyətlərinə görə bir-birindən təhlükəsiz məsafələrdə yerləşdirilmiş və mühafizə sipərləri ilə əhatə olunan 24 obyektdən ibarətdir. Buraya utilizasiya proseslərini həyata keçirmək üçün modul tipli 20 konteyner, transformator yarımstansiyası, müxtəlif növ partlayıcı maddələr və utilizasiya məmulatları saxlanılan anbarlar, zərərsizləşdirmə kamerası, kompressor binası, döyüş sursatlarının texniki vəziyyətinin qiymətləndirilməsi sahəsi və s. daxildir. Mərkəz müxtəlif çaplı mərmili atəş yığımlarının, artilleriya minalarının, qumbaraların, reaktiv mərmilərin, partladıcıların, siqnal və işıqlandırıcı patronların sökülməsi, tərkib hissələrinə ayrılması, tullayıcı və partladıcı atımların presləmə və əritmə üsulu ilə çıxarılaraq toplanması, yenidən forma dəyişikliyi verilərək qablaşdırılması üçün nəzərdə tutulub. Qeyd olundu ki, mərkəz alışdırıcı və partladıcıların tərkib hissələrinin zərərsizləşdirilməsi üçün texnologiyaya uyğun avadanlıqla təchiz olunub. Utilizasiya məqsədilə gətirilən döyüş sursatları tiplərinə və növlərinə görə qruplaşdırılaraq müvəqqəti saxlama anbarlarına yerləşdirilir. Sonra döyüş sursatlarının hər növündən nümunələr götürülərək texniki qiymətləndirmə laboratoriyalarına gətirilir. Xüsusi ayrılan otaqda böyüdücü vasitələrdən istifadə olunmaqla müayinədən keçirilir və ilkin qiymətləndirmə prosesi aparılır. Tipindən və ölçülərindən asılı olaraq utilizasiya prosesi müxtəlif konteynerlərdə bütün texniki təhlükəsizlik qaydaları nəzərə alınmış avadanlıqlarda avtomatik idarəetmə və xüsusi zirehli kameralarda kənardan nəzarət olunmaqla həyata keçirilir".

İyulun 26-da baş vermiş partlayışdan sonra MSN-in yaydığı rəsmi məlumatlardan birində bildirilirdi ki, utilizasiya olunması üçün Müdafiə Nazirliyi tərəfindən zavoda təhvil verilən 1500 ton məmulatdan qalan 146 ton sursatda hələlik naməlum səbəbdən partlayış əmələ gəlib.

**Partlayışa səbəb nədir?**

3 il əvvəl qurulan, mərkəzin açılışı ilə bağlı rəsmi məlumatda deyildiyi kimi, "utilizasiya prosesi müxtəlif konteynerlərdə bütün texniki təhlükəsizlik qaydaları nəzərə alınmış avadanlıqlarda avtomatik idarəetmə və xüsusi zirehli kameralarda kənardan nəzarət olunmaqla həyata keçirilir"sə, partlayışın səbəbi nədir?

**Partlayışın qəsdən törədilməsi və ya partlayışa səbəb olan şəraitin qəsdən yaradılması halları ola bilərdimi?**

Baş Prokurorluqdan bildiriblər ki, hazırda iş üzrə araşdırmalar davam etdirilir. Fakta görə Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində Cinayət Məcəlləsinin 223.2 (partlayış təhlükəli obyektlərdə təhlükəsizlik qaydalarını pozma ağır nəticələrə səbəb olduqda) və 314.2-ci (səhlənkarlıq ağır nəticələrə səbəb olduqda) maddələri ilə cinayət işi başlanıb...

Bir maraqlı məqam da odur ki, ötən il iyulun 6-da Şirvanda "Telemexanika" zavodunda baş verən yanğınla bağlı başlanmış cinayət işinin nəticəsi haqda ictimiyyətə bu günə qədər məlumat verilməyib. Bu gün də həmin partlayışın qəsdən və ya səhlənkarlıq üzündən baş verməsi bilinmir. Yada salaq ki, "Telemexanika" zavodundakı sexlərin birində baş vermiş partlayış nəticəsində 1959-cu il təvəllüdlü Raziyyə Süleymanova aldığı yanıq xəsarətlərindən hadisə yerində ölmüş, sexdə işləyən digər 19 şəxs müxtəlif dərəcəli bədən xəsarətləri almışdılar. Həmin vaxt faktla bağlı Şirvan Şəhər Prokurorluğunda Cinayət Məcəlləsinin 223.2-ci (partlayış təhlükəli obyektlərdə təhlükəsizlik qaydalarını pozma ağır nəticələrə səbəb olduqda) maddəsi ilə cinayət işi başlayıb. Hadisənin başvermə səbəblərinin müəyyənləşdirilməsi məqsədilə müvafiq ekspertizalar təyin edilmişdi.

❑ E.MƏMMƏDƏLİYEV



# ANAMA Şirvanda xüsusi əməliyyata başladı

**Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik (ANAMA) Şirvan şəhərində Müdafiə Sənayesi Nazirliyinin (MSN) tabeliyində olan hərbi təyinatlı "Araz" zavodundakı partlayışdan sonra təmizləmə işlərinə başlayıb. İyulun 26-da baş vermiş və bir neçə saat davam edən güclü partlayışdan sonra zavodun 2 kilometrliyinə qədər ərazilərə partlamamış mərmi başlıqları, siqnal raketlərinin patronları səpələnib. İyulun 28-dən başlayaraq ANAMA xüsusi təyinatlı mobil çevik qrupları ərazidə xüsusi əməliyyata başlayıblar.**

Xüsusi minaaxtaran qurğularla partlayış zamanı hündürlüyə qalxaraq yerə çırpılıb torpaq qatının altına girmiş mərmi başlıqlarının müəyyən olunması üçün müvafiq işlər görülür. Əraziyə səpələnmiş sursatlar toplanaraq xüsusi qablaşdırmalarda ərazidən uzaqlaşdırılır. Qeyd edək ki, "Araz" zavodunun tərkibindəki döyüş sursatlarının utilizasiya mərkəzində baş vermiş partlayış zamanı 2 nəfər işçi - İlhamə Əsgər qızı Nuriyeva və Ağamir Allahyar oğlu Məmmədov dünyalarını dəyişib, 26 nəfər yaralanıb. 8-10 saat davam edən partlayış zavodun ərazisində ciddi dağıntılara səbəb olub, 2 kilometr radiusda mərmi başlıqları, müxtəlif sursatların qalıqları səpələnib.

❑ E.MƏMMƏDƏLİYEV

SOCAR

# "SOCAR Türkiye" rəhbərliyində dəyişikliklər

**"Petkim Petrokimya Holding A. Ş." neft-kimya kompleksinin baş direktoru Saadettin Korkut saxlanılıb. "APA-Economics" "Anadolu" agentliyinə istinadən xəbər verir ki, eyni zamanda, S. Korkutun evində və iş yerlərində axtarış aparılıb. Həbsdən öncə holdinq rəhbəri tutduğu vəzifədən istefa verib.**

Bundan başqa, holdinqin, o cümlədən onunla əlaqəsi olan digər müəssisələrin də rəhbərliyində təmsil olunan bir neçə şəxsin işindən uzaqlaşdırıldığı iddia olunur. Onların sırasında "SOCAR Türkiye" şirkətinin rəhbərliyində daha bir dəyişiklik olub. "APA-Economics" xəbər verir ki, şirkətin baş direktorunun satınalma üzrə müavini Natiq Dəmirov işdən çıxarılıb.

Ümumilikdə 200-dən çox şəxs işdən uzaqlaşdırılıb. Onların arasında "SOCAR Turkey Energy" şirkətinin ictimaiyyətlə əlaqələr üzrə bölmənin rəhbəri Ömər Adsız, STAR zavodunun insan resursları üzrə direktoru Fuat Ulagay və onun "SOCAR Turkey Energy"dən olan həmkarı İlqar Mehmetoğlu, "SOCAR Turkey Energy"nin elmi tədqiqat üzrə direktoru Çetin Korkut da istefa verib. Bildirilir ki, onların işdən uzaqlaşdırılmasına səbəb FETÖ ilə əlaqələrinin olmasıdır.

"Petkim Petrokimya Holding A.Ş."nin sabiq baş icraçı direktoru Saadettin Korkutun saxlanılması və şirkətin bəzi əməkdaşlarının işdən azad olunmasına münasibət bildirib.

SOCAR-ın mətbuat xidməti və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Nizaməddin Quliyev "APA-Economics"ə açıqlamasında deyib ki, S. Korkut dünən tutduğu vəzifədən azad olunub və onu SOCAR-ın Yunanıstandakı törəməsinin ("SOCAR Greece") rəhbəri işləmiş Anar Məmmədov əvəzləyib.

N. Quliyev əlavə edib ki, "SOCAR Turkey Energy" şirkətində baş verən kadr islahatları çərçivəsində işdən çıxarılmış başqa rəhbər vəzifəli şəxslər də var: **"Onlardan birinin şikayəti əsasında "Petkim Petrokimya Holding A.Ş."nin sabiq baş icraçı direktoru Saadettin Korkut hüquq-mühafizə orqanları tərəfindən saxlanılıb".**

YENİ MÜSAVAT
N 164 (6485) 29 iyul 2016

# Öldürülən generalın köməkçisini yenidən həbs etmək istəyirlər

## Aydın Rəfiyevlə bağlı məhkəmə qərarından dövlət ittihamçısı narazı qalıb və apelyasiya protesti verib

**Bakı Apelyasiya Məhkəməsində müdafiə nazirinin sabiq müavini, Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə Qoşunlarının keçmiş komandanı general-leytenant Rail Rzayevin qətlindən sonra həbs olunan köməkçisi Aydın Rəfiyevin işi üzrə məhkəmə prosesi keçirilib. A.Rəfiyev Ağır Cinayətlərə Dair İşlər üzrə Hərbi Məhkəmənin 2 noyabr 2010-cu il tarixli hökmü ilə 9 il müddətinə azadlıqdan məhrum edilib. Bu ilin iyununda isə Aydın Rəfiyev vaxtından əvvəl azadlığa buraxılması üçün məhkəməyə vəsatətlə müraciət edib. Vəsatətə Qaradağ Rayon Məhkəməsində baxılıb və təmin edilib, A.Rəfiyev azadlığa buraxılıb. Məhkəmənin qərarından dövlət ittihamçısı Rauf Əsgərov narazı qalıb və apelyasiya protesti verib. Prokurorun protesti baxılması üçün Bakı Apelyasiya Məhkəməsinə göndərilib.**


Rail Rzayev

Hakim Vüqar Məmmədovun sədrliyi ilə keçirilən iclasda apelyasiya protesti üzrə ilkin baxış iclası keçirilib. Apelyasiya protestinə məhkəmə istintaqı aparılmadan baxılması qərara alınıb. Qərardan tərəflər Ali Məhkəməyə kasasiya şikayəti verib. Kasasiya şikayəti verildiyi üçün apelyasiya instansiyasında iş qeyri-müəyyən vaxtadək təxirə salınıb.

Qeyd edək ki, Ağır Cinayətlərə Dair İşlər üzrə Hərbi Məhkəmənin hökmü ilə Rail Rzayevin həbsdə olan yavəri Anar Haşımov 7 il, köməkçisi Aydın Rəfiyev 9 il və onun oğlu Anar Rəfiyev 7 il 6 ay müddətinə azadlıqdan məhrum ediliblər. İttihama görə, Rail Rzayevin köməkçisi Aydın Rəfiyev və yavəri Anar Haşımov 2009-cu il fevralın 11-də Rail Rzayev qətlə yetiriləndən dərhal sonra onun iş otağına qanunsuz müdaxilə edərək oradan külli miqdarda qızıl-zinət əşyaları, xeyli sayda dərman preparatı, DVD-lər və generala məxsus seyfdən 200 min avro məbləğində pul oğurlayıblar. Aydın Rəfiyev oğlu Anar Rəfiyevlə qabaqcadan əlbir olub cinayət əlaqəsinə girərək 2009-cu ilin mart ayında general Rail Rzayevin oğlu Qurban Rzayevin tapşırığı ilə onun şəxsi sürücüsü Bəxtiyar Ələsgərov tərəfindən Müdafiə Nazirliyinə qaytarılması üçün etibar edilərək ona verilmiş Rail Rzayevə məxsus 41 manat 37 qəpik dəyərində "general-leytenant" poqonlarına malik 1 ədəd hərbi qış gödəkcəsi, dövlət mülkiyyəti olan generalın xidməti avtomobilinə təhkim olunmuş 18 manat dəyərində 10-00 HM hərbi nömrə nişanını nazirliyə qaytarmadan Anar Rəfiyevə məxsus "Mitsubishi-Pajero" markalı, Az 10 OR 323 dövlət nömrə nişanlı avtomobildə 16 aprel 2009-cu il tarixinədək saxlamaqla, ona etibar edilmiş özgə əmlakını qulluq mövqeyindən istifadə etməklə mənimsəmə yolu ilə talayıblar.

Bundan əlavə, Anar Rəfiyevin əməkdaşlıq etdiyi "Aztol Telekom" MMC-də satış üzrə menecer vəzifəsində çalışdığı müddətdə şirkət rəhbərliyinin icazəsi və razılığı olmadan ona etibar edilmiş ümumi dəyəri 11 min 710 manat olan 18 ədəd mobil telefonu mənimsədiyi məlum olub. Aydın Rəfiyev Cinayət Məcəlləsinin - 177.3.2 (oğurluq - külli miqdarda ziyan vurmaqla törədildikdə), 179.2.1 (mənimsəmə və ya israf etmə - qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən edildikdə), 179.2.2 (mənimsəmə və ya israf etmə təkrar törədildikdə), 179.2.3 (mənimsəmə və ya israf etmə-şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə), 299.3 (ifadə verməkdən boyun qaçırmağa, yalan ifadə verməyə və yaxud yanlış tərcümə etməyə məcbur etmə və ya pulla ələ alma - bu əməllər sağlamlığa zərər vurmaqla, zor tətbiq etməklə törədildikdə), 311.3.1 (rüşvət alma - qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən), 341.2.1 (hakimiyyətdən sui-istifadə etmə, hakimiyyət həddini aşma və ya hakimiyyətdən istifadə etməmə - bu əməllər bir qrup şəxs tərəfindən törədildikdə), 341.2.3-cü (hakimiyyətdən sui-istifadə etmə, hakimiyyət həddini aşma və ya hakimiyyətdən istifadə etməmə - bu əməllər ağır nəticələrə səbəb olduqda), Anar Haşımov -177.3.2, 341.2.1, 341.2.3-cü, Anar Rəfiyev isə 179.2.1, 179.2.2, 179.3.2 və 299.2-ci (ifadə verməkdən boyun qaçırmağa, yalan ifadə verməyə və yaxud yanlış tərcümə etməyə məcbur etmə və ya pulla ələ alma - şahidi, zərərçəkmiş şəxsi yalan ifadə verməyə, eksperti yalan rəy verməyə, habelə həmin şəxsləri ifadə verməkdən boyun qaçırmağa məcbur etmə, şantajla və ya onların yaxın qohumlarını öldürmək, sağlamlığa zərər vurmaq və ya əmlakını məhv etmək hədəsi ilə törədildikdə) maddələri ilə təqsirləndiriliblər.

❑ E.HÜSEYNOV

# Cahangir Hacıyevdən maliyyə nazirinə yeni həmlə

## Həbsdəki sabiq bankirin bacısı onlardan alınan 184 milyonluq səhmin mənimsənildiyini açıqladı

**Azərbaycan Beynəlxalq Bankının həbsdə olan rəhbəri Cahangir Hacıyevin bacısı Əminə Hacıyeva Azərbaycan Maliyyə Nazirliyini və bankın hazırkı rəhbərliyini məhkəməyə saxta sənəd təqdim etməkdə ittiham edib. O, ölkə başçısına yazdığı müraciətində bildirir ki, ABB 2015-ci ilin iyul ayında onların ailəsinə məxsus səhmlərin alqı-satqısı üzrə sövdələşməni həyata keçirsə də, onlara heç bir pul ödənməyib.**




"Buna görə də biz məhkəməyə müraciət etməyi qərara aldıq. ABB rəhbərliyi Maliyyə Nazirliyinin həssas rəhbərliyi altında məhkəməyə bizim saxta imzalarımız olan sənədləri təqdim edib. Mənim saxtalaşdırılmış imzam və tarixin qeyd olunduğu saxta məxaric orderini sizin diqqətinizə təqdim edirəm. Təhrik edilməmiş gözlə görmək olar ki, "30" tarixi və eləcə də mənim imzam saxtadır. Əlbəttə ki, biz burada olan Məhkəmə Ekspertiza Mərkəzinə və xaricdə olan müstəqil ekspertlərə müraciət edəcəyik. ABB rəhbərliyi Maliyyə Nazirliyinin başçılığı ilə qardaşım Cahangiri sübuta yetirilməmiş və əsaslandırılmamış pul mənimsəməsində günahlandıraraq və qanunun bütün normalarını aşaraq sənədləri saxtalaşdırmış və bizim pullarımızı mənimsəyiblər. Ortaya belə bir sual çıxır: kim kimdən oğurlayıb? ABB digər fiziki şəxslərdən səhmləri toplayaraq məhz onların kreditini bağlayıb. Bəs nə üçün bizim səhmlərlə Cahangirin kredit kartı üzrə olan borclar bağlanmayıb? Bizim pullarımız kimlərin cibinə gedib? Maliyyə Nazirliyinin bədgüman və düşmən münasibəti bizə aydındır, lakin bəs nə üçün Ədliyyə Nazirliyi qərarın bizim əleyhimizə qəbul olunmalı olduğunu diktə edərək məhkəməyə təzyiq edir? Bu cür əsassız fikir onlarda haradandır?"

**Ə.Hacıyeva Cahangir Hacıyevin həyat yoldaşı Zamirə Hacıyevanın da məsələsinə toxunub:** "Zamirənin 4 milyonluq kredit kartı üzrə borcu olub ki, o, səhmlərlə bu məbləği ödəyib. Lakin borc hələ də bağlanmayıb. Bəs onda bəzi mətbu orqanlarda deyilən 18 milyon məbləğ haradan götürülüb?"

Ə.Hacıyeva prezidentə müraciət edərək, günahsız insanları məhkum etməyə icazə verməməsini xahiş edir.

Yada salaq ki, bu, Ə.Hacıyevanın ölkə başçısına 2-ci müraciətidir. Ötən müraciətində də Ə.Hacıyeva bir çox məqamları sadalamış, qardaşının həbsinin doğru olmayan məlumatlara əsaslandığını qeyd etmişdi.

C.Hacıyevin vəkili Aqil Layıcov isə bildirmişdi ki, müvəkkili özünə və ailə üzvlərinə məxsus olan 184 milyon manatlıq səhmi təhvil verməklə ehtimal edilən zərərlərə yönəldilməsini istəyib. Amma bu baş tutmayıb.

C.Hacıyev 2015-ci ilin dekabr ayında həbs edilib. O, vəzifə səlahiyyətlərindən sui-istifadə, vəzifə səlahiyyətlərini aşma və digər əməllərdə ittiham edilir. Cinayət işinin istintaqı yekunlaşıb və baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsində icraata verilib.

❑ E.HÜSEYNOV



## Mədət Quliyev xüsusi xidmətlərlə yeni təhdidləri müzakirə edir

**2016-cı il iyul ayının 27-28-i tarixində Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində Xüsusi xidmət, təhlükəsizlik və hüquq mühafizə orqanları rəhbərlərinin XV müşavirəsi keçirilib.**

Virtualaz.org DTX-nin saytına istinadən bildirir ki, müşavirənin işində Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-leytenant Mədət Quliyevin rəhbərlik etdiyi nümayəndə heyəti də iştirak edib.

Beynəlxalq təhlükəsizliyin təmin olunmasında tərəfdaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsi məqsədilə keçirilən və 61 ölkədən 300-dən artıq nümayəndənin qatıldığı tədbirdə BMT-nin və Şanxay Əməkdaşlıq Təşkilatının aidiyyəti strukturlarının məsul vəzifəli şəxsləri də təmsil olunublar.

Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-leytenant Mədət Quliyev müşavirədə "Təhlükəsizlik orqanlarının terrorçuluğa və terrorçulara qarşı mübarizədə əməkdaşlıq məsələlərinə dair" mövzusunda çıxış edib.

Mədət Quliyev müşavirə çərçivəsində tərəfdaş xüsusi xidmət orqanlarının nümayəndə heyətlərinin rəhbərləri ilə ikitərəfli görüşlər keçiib.

## Rusiyada məhbusların qiyamına azərbaycanlı başçılıq edib?

**Xakasiyadakı həbsxanada baş verən qiyamın təşkilatçılığında təqsirkar bilinən 4 məhbus barəsində cinayət işi qaldırılıb.**

Modern.az bildirir ki, onların arasında azərbaycanlı Şamil Əliyev də var.

Abakandakı islah-əmək müəssisəsində qarşıdurma iyulun 24-də axşam baş verib və səhəri gün səhər saatlarında qarşısı alınıb. Qiyamda 242 nəfər (burada cəmi 302 məhbus var) iştirak edib. Məlumatda qiyamın təşkilatçısının Moskvadan gəldiyi qeyd edilir.

Onların əsas tələbi onlara xüsusi ayrılmış yerdə yox, sərbəst şəkildə siqaret çəkmələrinə icazə verilməsi, həbsxananın ərazisində sərbəst hərəkət etmək və döş nişanları taxmamaq olub.

Bundan əvvəl qiyamın 4 təşkilatçısına - Yuri Tımtışevə, Fərhad Niyazova, Arsen Abramyana və Qavruş Tonyana da ittiham irəli sürülüb.

YENİ MÜSAVAT
N 164 (6485) 29 iyul 2016

# "Səfirliyin binasına getdiyim gün məni anam da görsə tanımazdı..." - mühacir jurnalistdən heyrətamiz açıqlamalar

## Emin Hüseynov: "Saqqalım, sarı saçlarım və rəngli gözlərim vardı"; "Məni Allah saxladı, tale mənim tərəfimdə oldu"

**2014-cü ildə baş verən hüquq müdafiəçilərinin həbsi dalğasından qurtulan yeganə şəxs o oldu. Çox peşəkarcasına qurduğu plan, bir az da şansı sayəsində öncə İsveçrənin Azərbaycandakı səfirliyinin binasında 10 ay qaldı, daha sonra isə elə həmin ölkəyə köçdü. Reportyorların Azadlığı və Təhlükəsizliyi İnstitutunun direktoru Emin Hüseynovla İsveçrəyə köçdüyü ilk gündən müsahibə etmək istəsək də, ancaq indi buna razılaşdı.**




*Son günlər adı jurnalist həmkarı Xədicə İsmayılla aralarındakı qalmaqala görə hallanır. Biz bu istiqamətdəki suallarımızı yönəltmək üçün onunla müsahibəyə yenidən cəhd etdik və bu dəfə... alındı. Üstəlik, skayp vasitəsilə, canlı-görüntülü ünsiyyət. Saat yarım davam edən müsahibənin videoversiyası ilə müsavat.com saytında tanış olacaqsız. Söhbətin ilk hissəsini isə aşağıda təqdim edirik:*

***- Emin bəy, öncə əhvalınızı soruşum. Necəsiz? Səhhətiniz qaydasındadırmı?***

- Səhhətim bir qədər stabilləşib. Mən deməzdim ki, tam mükəmməldir. Amma ilkin mərhələ ilə müqayisədə daha yaxşıdır. Özümü bir qədər yaxşın hiss edirəm. Səhhətimin üzərində bir az işləməliyəm, düzəltməliyəm onu.

***- Söhbətə səhhətinizlə başlamağımın bir səbəbi də sizin Azərbaycandan gedəndən sonra, İsveçrədən CNN-in əməkdaşı Amanpura verdiyiniz ilk müsahibə zamanı xarici görüntünüz idi. Arıqlamışdız, olduqca solğun və xəstə görkəminiz vardı. Sizi tanıyanların hamısı da məhz buna görə narahat olmuşdu ki, görəsən, Emin Hüseynova bu müddətdə - İsveçrənin Azərbaycandakı səfirliyində qaldığı ərəfədə nə olub ki, bu hala düşüb?***

- Həmin müsahibədəki görüntü qapalı məkanda 10 ay ərzində qalmağımın nəticəsi idi. Həmin zaman kəsimində, 20 kvadrat metr sahəsi olan bir otaqda yaşayırdım. Orda kifayət qədər açıq hava, gün işığı yox idi. Hətta olduqca sağlam şəxs üçün belə elə bir məkanda 10 ay müddətində qalmaq problemlər yarada bilərdi. Amma mənim səhhətimdə ondan öncə də problemlər vardı. Peşə fəaliyyətimi yerinə yetirdiyim zaman hüquq-mühafizə orqanları tərəfindən mənə fiziki basqılar olmuş, nəticədə əlil olmuşdum. Bunun üstünə mənim qapalı məkanda 10 ay qalmağım da təsirsiz ötüşə bilməzdi. Amma olan oldu, keçən keçdi. Allaha şükür, səhhətim indi bərpa olundu.

***- Amma o 10 ay müddət mətbuat üçün də "qapalı sahə" idi. Həmin müddətdə, ümumiyyətlə, sizin harda olmağınız, necə yaşamağınız suallarla dolu bir mövzu idi. Maraqlıdır, necə oldu ki, yolunuz İsveçrənin Azərbaycandakı səfirliyinə düşdü? Bir ay yox, iki ay yox, tam on ay orda qalmağınızın səbəbi nə idi? Nə baş verirdi orda? Bizə hekayəni qısa da olsa danışa bilərsiz?***

- Niyə məhz İsveçrə səfirliyi? Bildiyiniz kimi, İsveçrə son 200 ildə humanitar ənənələri inkişaf etmiş ölkə kimi tanınır. Mən əmin idim ki, İsveçrə beynəlxalq hüquq müdafiə mexanizmlərinə sahib olduğu üçün ora müraciət etdiyim zaman məni müvəqqəti olsa da müdafiə etmiş olacaqlar. Bunu sınadım və gördüm ki, həqiqətən də orda bu beynəlxalq mexanizmlər işləyir. Bir şey deyə bilərəm ki, İsveçrə hökumətinə və isveçrə xalqına bu beynəlxalq mexanizmləri tətbiq etmələrinə görə təşəkkür edirəm. İstərəm ki, bir çox ölkələrin belə mexanizmləri olsun. Təbii ki, hərə öz imkanı daxilində təhlükə ilə üzləşmiş hüquq müdafiəçiləri və jurnalistlərə yardım etsin. Bu, beynəlxalq təcrübədir. Bu və ya digər ölkədə təhlükə ilə üzləşmiş insanlar xarici ölkələrin səfirliklərinə sığınacaq üçün müraciət edirlər. Səhv etmirəmsə, "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu da 2003-cü ildə təhlükə ilə üzləşəndə Norveçin Azərbaycandakı səfirliyində bir neçə gün qalmışdı. Amma sonra öz qərarı ilə oradan çıxdı və ehtimal etdiyi kimi də həbs olundu. Mən qərara gəldim ki, həyatımı qorumalıyam və 10 ay ərzində məsələnin çözülməsi üçün gözlədim. Hesab edirəm ki, həyatımdakı çətin imtahanlardan biri də olsa, qazanılmış müsbət təcrübə oldu. İtki hesab etmirəm, ömür hadisəsidir, hər bir insanın başına gələ bilər.

***- Emin bəy, niyə ora sığındız? Həmin dönəmdə həbs olunan hüquq müdafiəçiləri çox idi. Sizə qarşı da eyni plan var idi? Necə oldu ki, siz çox rahatlıqla səfirliyə sığındız, həbs olunmadız... Sizinlə bağlı hekayə nə idi? Nə demişdilər?***

- Hadisə baş verməmişdən bir ay öncə iş kollektivilə birgə Qubaya getdik. İstirahət zamanı meşədə gəzərkən yıxıldım və çiynim çıxdı. Gətirdilər məni Bakıya, bir ay xəstəxanalarda gəzdim. Amma burada yaxşı həkimlər qabağıma çıxmadığı üçün Tiflisə getdim. Orda olanda mənə Vergilər Nazirliyindən zəng etdilər ki, sizə yoxlamaya gələcəyik. Dedim ki, hazırda Tiflisdəyəm, müalicə olunuram, amma qayıdacam. Hətta həmin vergi məmuru məndən ironiya ilə soruşdu ki, siz həqiqətən də qayıtmaq istəyirsiz ölkəyə? Dedim, gözükölgəli deyiləm, hamıdan da çox vergimi ödəmişəm. İstəsəz, mənim gəlişimə qədər bizim baş mühasib sizə sənədləri göstərsin, lazımdırsa, mən müalicəmi yarımçıq qoyub gələ bilərəm. Bu danışıq olub iyunun 28-də. Ayın 29-da qayıtdım Bakıya. Burda da həkimlər dedi ki, müalicəni ölkə xaricində davam etdirsən yaxşıdır. Səidə Qocamanlının məsləhət bildiyi bir həkimin qəbuluna düşmək üçün Türkiyəyə getməyə qərar verdim, həkimdən görüş vaxtı aldım. Amma bilet almaq üçün evdən pasportumu götürəndə məlum oldu ki, pasportumu itirmişəm. "Asan Xidmət"ə getdim. 190 AZN ödədim, 12 saata pasportumu aldım. Biletimi də aldım. Aeroporta gedəndə məlum oldu ki, mənim ölkədən çıxışıma qadağa qoyulub. Halbuki mən 2 saat öncə pasport almışdım və çıxışıma qadağa var idisə, bu pasport verilməməliydi. Avqustun 7-dən məni axtarmağa başladılar. Rəsulu, Leyla xanımı tutmuşdular, İntiqam müəllimi axtarırdılar. Məhkəməyə müraciət etdim, sonra məni prokurorluğa çağırdılar. Bildim ki, məni tutacaqlar. Ayın 8-dən sonra təhlükəsizliyimi təmin etmək məqsədilə hüquq-mühafizə orqanlarından qorunmağa çalışdım. Amma o vaxt mətbuatda mənim həbs olunmağım, yanıma vəkil buraxılmaması ilə bağlı doğru olmayan xəbərlər yayıldı. Həmin ərəfədə sizin saytda da yazılmışdı ki, Emin Hüseynovu həbs ediblər.

***- Bunların hamısı məlumatsızlıqdan, məlumat mənbələrinin mediadan hər şeyi gizlətməsindən qaynaqlanırdı.***

- Jurnalistlər də çox istədiklərindən yazırdılar ki, Emini tutublar, amma yanına vəkil buraxmırlar. Bu, jurnalist həmrəyliyindən qaynaqlanır. Mən burda pis heç nə görmürəm. İnformasiya mənbəyi yoxdur. Ayın 18-nə qədər başqa yerdə gizlənməli oldum, ondan sonra isə öz ayağımla gəldim səfirliyə. Hüquq-mühafizə orqanlarının işçiləri də məni orda gözləyirdilər.

***- Emin bəy, niyə məhz İsveçrə səfirliyinə müraciət etdiz? O vaxt xəbərlərdə də yer almışdı ki, sizinlə bağlı məsələ Amerika və İsveçrə hökumətlərini üz-üzə qoyub. "Amerika səfirliyi ona sığınacaq verməyə özündə cəsarət tapmayıb" deyə ABŞ Nümayəndələr Palatasının üzvü Dana Rohrabacher ölkəsinin Azərbaycandakı səfirliyini belə tənqid etmişdi. Doğurdanmı Amerika səfirliyinə müraciət etdiyiniz halda rədd cavabı almısız? Bütün hallarda həm də həyat yoldaşınız Sara Amerika vətəndaşı olduğu üçün gözləntilər o istiqamətdə idi ki, sizi sözügedən səfirlik himayə edəcək.***

- ABŞ səfirliyindən kömək istəmişdim. Bu məqamda yoldaşlardan biri mənə demişdi ki, bizdə müəyyən problemlər var. Mən də bunu xoş niyyət kimi qəbul edib anladım ki, kimsə bunu sənə deyirsə, deməli ki, təminat yoxdur. Doğrudur, ora getsəm, məni ordan heç kim çıxarmayacaqdı. Amma həmin vaxt ölkədə səlahiyyətli səfir yox idi. Səfirin səlahiyyətləri bitmişdi. Mənim qərarım da məhz bu məqamla bağlı idi.

***- Qayıdaq həmin gün İsveçrə səfirliyinin binası qarşısında baş verənlərə. Az öncə dediz ki, orda sizi həbs etmək üçün gözləyən hüquq-mühafizə orqanı əməkdaşları vardı. Onlar sizi necə tanımadılar? Həmin vaxt bəzi media orqanları yazdılar ki, Emin Hüseynov səfirliyin binasına qadın qiyafəsində girdiyi üçün tanınmayıb. O hekayəni danışa bilərsiz?***

- Mən heç kimə pasport təqdim etməmişəm. Səfirliyin qabağında da məndən pasport tələb edəcək səlahiyyətli şəxs yox idi. Mən bilirəm ki, hansı səfirliyin iş sistemi necədir. Amma mən ehtimal etmirdim ki, binanın qabağında məni gözləyəcəklər. Mən gec tanıdım. Onlar da nədənsə şübhələndilər, amma nəsə etmədilər. Mən deyərdim ki, həmin vaxt tale mənim tərəfimdə idi, Allah məni saxladı. 30 saniyə, 1 dəqiqə gec olsaydı, onlar daha əsaslı şəkildə şübhələnə bilərdilər. Öncə iki nəfər yaxınlaşdı mənə, anlamadılar. Daha sonra daha ikisi... Ümumilikdə orda altı nəfər hüquq-mühafizə əməkdaşı məni tanımadı...



***- Niyə? Nə qədər dəyişmişdiz ki?***

- Mən bir qədər dəyişmişdim. Amma indi gördüyünüzdən çox da fərqli deyildim. Bəzi vizual dəyişikliklər edilmişdi. Adi köynəkdə gəlmişdim. Bəlkə saqqal vardı, gözümün rəngi eyni deyildi.

***- (Zarafatla) Hər halda, qadın geyimində deyildiz..***

- Xeyr. Amma saça vurulan xüsusi rəng dəyişdirici spreydən istifadə etmişdim, sarı saçlı idim. "Blondin"ə oxşayırdım, ona görə də tanımadılar. Amma bilirdim ki, məni bütün şəhərdə axtarırlar, harada tutsaydılar, dərimi soyacaqdılar. Hüquq-mühafizə orqanının mülki geyimli işçiləri məndən konkret heç nə soruşmadılar binaya girəndə. Çünki onlar məni xarici bilirdilər, ingilis dilində danışır, özümü xarici kimi təqdim etmişdim. Anam da görsə tanımazdı. Siz də bilirsiz ki, sizi kimsə axtarırsa, ənənəvi görüntüdə getmək riskdir. Hər bir insan həyatını riskdən xilas etməlidir. Onlar birbaşa səfirliyin mühafizə xidmətinin əməkdaşı ilə dialoqda idilər. Bunu gələcəkdə nə vaxtsa kitab kimi yazmaq olar.

***- Beləcə, girdiz səfirliyin binasına və tam 10 ay orda qaldız. Emin bəy, niyə 1-2 ay yox, məhz 10 ay? Bu müddət niyə bu qədər uzandı? Nə gözlənilirdi?***

- 10 ay ərzində hər bir məsələnin çözülməsi üçün vaxt tələb olunurdu. Mən ora daxil olandan 2 saat sonra Azərbaycan hakimiyyəti bunu bilirdi.

***- Bəs günləriniz necə keçirdi? 10 ay boyunca dar bir hücrədə, işıq düşməyən bir yer...***

- İlk 3-4 ay çətin oldu. Adaptasiya dövrü idi. Həbsxanaya da düşəndə, əsgərliyə də gedəndə ilk dövr belə çətin keçir. Hətta burda adamın gözləri də zəif görməyə başlayır. Çünki insanın baxış fokusu həmişə eyni məsafəyə baxır. Səfirlikdən çıxandan sonrakı ilk 4-5 ayda mən uzağı görə bilmirdim. Gözlərim yaxın məsafəyə baxmağa öyrənmişdi. Bir az adam darıxırdı, heç kim yanıma gəlib getmirdi. Amma diplomatlar hər zaman halımı soruşublar, dərmanlarımı təmin ediblər. Yeməyim, suyum qaydasında idi. Müəyyən məhdudiyyətlər var idi. Mən qonaq getmişdim və sonda da mehribançılıq oldu.

***- Və necə oldu ki, siz səfirliyi tərk elədiz, ölkədən çıxdız? . Həmin sürəcdə nələr yaşandı? Səfirlikdəki son günü-nüzdən danışaq, mümkünsə...***

*(davamı növbəti sayımızda)*

**❑ Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 164 (6485) 29 iyul 2016

# Bakı-Tiflis-Qars dəmir yolu xətti ilin sonuna işə düşəcək

**Bakı-Tiflis-Qars dəmir yolu xətti layihəsində aparılan işlərin böyük hissəsi tamamlanıb. Bu barədə məlumatı Türkiyənin nəqliyyat, dənizçilik və kommunikasiya naziri Əhməd Arslan mətbuata açıqlamasında bildirib.**

## Nadir Əzməmmədov: "2017-ci ilin əvvəlində qatarlarımız hərəkət edəcək"

"Texniki işlərə nəzarət edən şəxslərlə mövcud durumu və qarşıda görüləcək işləri müzakirə etdik. Hazırda Qars çayı üzərində tikinti işləri aparılır, körpülər üzərində aparılan işlər bitmək üzrədir. Qars çayı üzərindən körpünün tikintisi avqustda bitəcək. Qrafikə nəzər saldıqda məlum olur ki, işlər çox sürətli şəkildə həyata keçirilir", - deyə nazir bildirib.

**Ə.Arslan əlavə edib ki, layihənin Türkiyə ərazisində reallaşan hissəsində işlərin 87%-i tamamlanıb:** "Bizim hədəfimiz bu ilin sonunda dizellə çalışan ilk lokomotivi yola salmaqdır". Bəs görəsən, ümumilikdə bu layihə üzrə işlər hansı mərhələdədir? Azərbaycan və Gürcüstan tərəfindəki işlər yekunlaşıbmı? Bu dəmiryol xəttinin işə düşməsi ölkəmizə nə vəd edir?

**"Yeni Müsavat"ın suallarını cavablandıran Azərbaycan Dəmiryolları Qapalı Səhmdar Cəmiyyətinin mətbuat xidmətinin rəhbəri Nadir Əzməmmədov Azərbaycan tərəfində işlərin artıq yekunlaşdığını və lokomotivlər vasitəsilə dəmiryol xəttində qatarların işə başladığını bildirdi:** "Bakı-Tiflis-Qars dəmir yolu xəttində artıq qatarlar hərəkət edir. Biz lokomotivlərlə müəyyən bir yerə kimi gedib gələ bilirik. Elektrik təchizatı, rabitə-siqnalizasiya xətləri demək olar ki, tamamlanmaq üzrədir. Deməl olar ki, bütün işlər yekunlaşır və artıq ilin sonunadək qatarlarımızı Gürcüstan sərhədinə kimi apara biləcəyik. Onu da qeyd edim ki, dəmiryol xəttinin Gürcüstan hissəsini də Azərbaycan tikir. Türkiyə tərəfdə də işlər gedir. O ölkənin nəqliyyat naziri də görülən işlərlə bağlı açıqlama verib".




**N. Əzməmmədov onu da vurğuladı ki, layihənin reallaşmasına 2007-ci ildə başlanılıb:** "Bilirsiniz ki, bu layihənin maliyyələşməsini də Azərbaycan öz üzərinə götürdü. Daha sonra da bu işlərə start verildi və reallaşmaya başlanıldı. Hesab edirik ki, 2016-cı ilin sonunda, 2017-ci ilin əvvəlində qatarlarımız hərəkət edəcək".

**Dəmir yolu İdarəsi rəsmisi həmçinin qeyd etdi ki, bu layihənin reallaşması təkcə Azərbaycana deyil, qonşu ölkələrə də fayda gətirəcək:** "Azərbaycan bu layihədən böyük xeyir götürəcək. Ölkəmiz Trans-Asiya, Trans-Avropa nəqliyyat dəhlizinə qoşulacaq. Artıq Türkiyə tərəfindən də qatarlar işləyəcək. Bundan əlavə, Çindən gələn yüklər Trans-Xəzər nəqliyyat dəhlizi vasitəsilə daşınacaq. Bu, ölkəmizə həm siyasi, həm də iqtisadi dividentlər gətirəcək".

❑ Nərgiz LİFTİYEVA

# Qarabağ Azadlıq Təşkilatı aksiya xəbərdarlığı etdi

**İyulun 28-də Ömürlük Məhbusların Hüquqlarını Müdafiə Komitəsinin iclası keçirilib. İclasda ömürlük məhbusların saxlanma şəraiti, bəzi məhbusların müraciəti və digər məsələlərlə bağlı müzakirələr aparılıb.**


Akif Nağı

Komitədən musavat.com-a daxil olan məlumata görə, iclasda iştirak edən tanınmış vəkil Elçin Qəmbərov Müdafiə Komitəsinin işinə hər cür kömək etməyə hazır olduğunu bildirib. Müdafiə Komitəsinin rəhbəri, QAT sədri Akif Nağı mətbuat üçün açıqlamasında qeyd edib ki, ömürlük məhbusların işi ilə tanış olduqca, onlara qarşı böyük haqsızlıqların yer aldığı üzə çıxır: "Çoxlu sayda qanun pozuntuları olub, obyektiv araşdırmalar aparılmayıb, insanlara heç bir ciddi əsas olmadan ömürlük həbs cəzası verilib, çox vaxt subyektiv amillər üstünlük təşkil edib. Hətta hər hansı cinayətdə ümumiyyətlə iştirak etməyənlər də ən ağır cəzaya, ömürlük həbs cəzasına məruz qalıblar. Bu ədalətsizliklər aradan qaldırılmalıdır. Biz bir daha vurğulayırıq ki, bizim problemləri kənardan hansısa beynəlxalq qurum deyil, özümüz həll etməliyik. Ona görə də biz haqq-ədaləti daxildə axtarırıq, bu məqsədlə millət vəkli Mehriban Əliyevaya, ədliyyə naziri Fikrət Məmmədova müraciətlər etmişik, amma hələ heç bir cavab almamışıq. Qaldırdığımız problemlərə reaksiya verilmir, əksinə, ömürlük məhbuslara qarşı daha amansız davranılır, onlara işgəncələr verilir, məhbusların etibarnamə vermələrinə süni əngəllər yaradılır, vəkilləri ilə görüşmələrinə imkan verilmir".

**A.Nağı bildirib ki, etiraz aksiyalarına başlamağı planlaşdırırlar:** "Biz hələlik məktublarımıza cavab gözləyirik, əgər cavab verilməsə, tədbirlər görülməsə, dövlət başçısına müraciət edəcəyik. Bu müraciətimiz də nəticəsiz qalsa, ömürlük məhbusların saxlanıldıqları Qobustan həbsxanasının qarşısında etiraz aksiyalarına başlayacağıq. Biz insanlara bu cür zülm edilməsinə, onlara qarşı haqsızlıqlara dözə bilmərik. Onu da qeyd etməliyik ki, məhbusların xeyli hissəsi Qarabağ müharibəsində savaşıb, sağlamlıqlarını itiriblər".

❑ Musavat.com

# "Xainlər qəbiristanlığı" Türkiyədən başqa harada var?

## Dilavər Əzimli: "Türk tarixini vərəqlədikcə, hətta düşmənlə münasibətdə bir başqa davranış görmüşük"

## Anar İsgəndərov: "Kimsə vətənini satırsa, yaxud da buna qarşıdırsa, o, ən ağır cəzaya layiqdir"

**İyulun 15-də Türkiyədə dövlət çevrilişinə cəhddə iştirak edən və hökumət qüvvələri tərəfindən öldürülən şəxslərin dəfn olunması üçün "Xainlər qəbiristanlığı" deyilən yer yaradıldı. Bu məzarlıq İstanbulun Tepeören ərazisində bələdiyyənin sahibsiz heyvanlar üçün qurulan sığınacağın yerində salındı və girişdə "Xainlər qəbiristanlığı" yazılan lövhə də yapışdırıldı.**

"Habertürk" qəzetinin məlumatına görə, qəbiristanlığa basdırılan ilk "xain" bələdiyyə muxtarını qətlə yetirən kapitan Mehmet Qarabəkir olub.

Bəllidir ki, Türkiyə və eləcə də digər ölkələrin tarixində müxtəlif zamanlarda qiyamlar, hərbi çevrilişə cəhdlər olub. Demək olmaz ki, bu cəhddə bulunanlar hər zaman öz məqsədlərinə çatıblar. Bəs tarixdə hərbi çevrilişə cəhd edənlər, qiyamçılar üçün bu cür, xüsusi qəbiristanlıq salınıbmı?




**Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan tarixçi Dilavər Əzimli bildirib ki, ümumiyyətlə, türk tarixində bu cür hadisə olmayıb:**

"Türk tarixini vərəqlədikcə, hətta düşmənlə münasibətdə bir başqa davranış görmüşük. Yeni belə bir hala tarixdə rast gəlməmişəm. Döyüş əsnasında və yaxud da əsir düşən düşmənlə də türklər hər zaman döyüşçü kimi davranıblar. Bunun örnəyini Azərbaycan-Ermənistan savaşında da müşahidə etmək olar. Azərbaycanlı döyüşçülər də düşməni əsir götürdükləri zaman onunla normal davranırlar. Nəinki türk tarixi, hətta dünya tarixində belə qiyamçıları bu kimi qəbiristanlıqda basdırmaq çox nadir hallarda rast gəlinən məsələdir. Məsələyə dini yönümdən baxanda da görə bilərik ki, peyğəmbərimiz hətta əsirlərə, kafirlərə belə normal münasibət göstərməyi tövsiyə edib. Tarixçi kimi belə halı doğru saymıram. Osmanlı tarixini götürdükdə bir neçə məqamın şahidi oluruq. Sultan Süleymanın dövründə yeniçərilərin üsyanı baş verir. Həmin zaman Sultan Süleyman gəlir və qiyamı edəni, onun birbaşa arxasında duranı cəzalandırır. Ancaq qalanlarına müxtəlif vəzifələr, pul verir. Onları işlərə cəlb edir. Çünki Süleyman bu yeniçərilərə döyüşçü kimi baxır. Hesab edirəm ki, onun qərarı doğru addım olur".

Tarixçi bildirib ki, slavyanlarda, Avropada qiyamçıları cəzalandırma üsulları olsa da bu cür qəbiristanlıq olmayıb.

**Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan tarix elmləri doktoru, professor Anar İsgəndərov isə bildirib ki, bütün hallarda vətən xainləri ən sərt cəza ilə cəzalandırılmalıdır:** "Kimsə vətənini satırsa, yaxud da ona qarşıdırsa, o, ən ağır cəzaya layiqdir. Bu, dünya qanunlarında da belədir. Azərbaycan tarixində ən sadə bir misala diqqət çəkmək istərdim. İkinci Dünya müharibəsi illərində faşist Almaniyasına əsir düşüb qayıdanların aqibəti necə oldu? Onlara ən azı 25 il iş verdilər. Yalnız Stalinin ölümündən sonra həmin şəxslərin bir qismi bəraət aldı. Ümumiyyətlə isə onlar "vətən xaini" adlandırılırdılar. Eyni zamanda dünyada hun, yunan imperiyalarında, Mesopotamiyada vətənə xəyanətdə ittiham olunanlara ölüm hökmü verilib. Onlardan eləsi olub ki, dar ağacından asılıb. Elə bizim konstitusiyamızda da ən ağır maddə vətənə xəyanətdir. Dünya tarixində buna bənzər hadisələr yox deyil. Ayrı-ayrı fərdlər bu kimi xəyanətlər ediblər və cəzalarını da alıblar. Osmanlı və Türkiyə tarixində də ordunun hakimiyyətə gəlişi bir neçə dəfə təkrar olunub. Lakin onların heç biri uğur qazana bilməyib. Türkiyədəki son hadisələr isə gözümüzün önündə baş verdi. Biz Türkiyə Cümhuriyyətinin vətəndaşı olmasaq da, onların ən yaxını kimi, hər bir azərbaycanlı da bu hadisəni pislədi. Onsuz da heç zaman Qərb cəmiyyəti türk cəmiyyətini sevməyib. Türkiyəni sevən Azərbaycan və ziyalılarımız bu hadisəni təbii olaraq lənətləyib, haqq səsini çıxardı. Türkiyə nə qədər tez özünə gələcəksə, bu həm də Azərbaycan cəmiyyətinin uğurudur".

**Tarixçi bildirib ki, hərbi çevrilişə cəhd edənlərə hansı formada qəbiristanlıq salınmağından asılı olmayaraq, onlar vətən xainidirlər:** "Vətənə xəyanət ediblər və bu bağışlana bilməz. Eyni zamanda onlar təkcə Türkiyəyə deyil, ümumən türkçülüyə xəyanət ediblər. Bir an belə düşünək ki, hərbi çevrilişə cəhd edənlər istəklərinə nail olsaydılar, ən ağır zərbələrdən biri Azərbaycana dəyəcəkdi. Çünki biz ən çətin məqamlarda nə zaman Türkiyə Cümhuriyyətinə əl uzatmışıqsa, dəstək almışıq. Bunun ən böyük nümunəsi Qafqaz İslam Ordusunun Azərbaycana gəlişi və daşnaq-bolşevik birləşmələrindən azad etmələridir. Bundan böyük hadisə yoxdur. Bütün problemlərimizdə ilk kömək istədiyimiz dövlət Türkiyə dövlətidir. Bu baxımdan, qeyd etdiyim kimi, çevrilişə cəhd edənlərin niyyəti baş tutsaydı, bu, türk dünyasına, ən çox isə Türkiyədən sonra Azərbaycana vurulan zərbə olardı".

Onu da qeyd edək ki, Türkiyə tarixində hərbi qiyam edən yeniçərilər taxtdan saldıqları sultanları da öldürüb, onlarla amansız davranıblar. Lakin yeniçərilər əksər hallarda qiyam vasitəsilə hakimiyyətə gəlməyi bacarıblar. Misal üçün, 16-cı əsrin sonundan başlayaraq yeniçəri ocağı daha çox Osmanlı dövlətində hərbi qiyamların təşkil edilməsi, sultanların, sədrəzəmlərin hakimiyyətdən salınması ilə yadda qaldı.

Yeniçərilər 1622-ci il mayın 22-də hərbi qiyamla Sultan II Osmanı devirərək öldürdülər.

Bundan sonra yeniçəri əsgərləri qarşıdan gələn 200 il boyunca Osmanlı sultanlarının iqtidara gəlişində və taxtdan endirilməsində əsas rol oynadılar. Yeniçəri qiyamları sayəsində I İbrahim, IV Mehmet (1648-1687), II Mustafa (1695-1703), III Əhməd (1703-1730), III Səlim (1799-1807), IV Mustafa kimi sultanlar zorla hakimiyyətdən əl çəkdirilib, öldürülüblər.

❑ Əli RAİS

YENİ MÜSAVAT
N 164 (6485) 29 iyul 2016

# Deputatlardan baş nazirlə bağlı çağırış

**Azərbaycan Konstitusiyasına təklif edilən dəyişikliklərdən biri ölkənin ikinci şəxsinin bundan sonra baş nazir yox, vitse-prezident olmasının nəzərdə tutulmasıdır. Milli Məclisin bir sıra deputatları hesab edir ki, son dövrlər həyata keçirilən struktur islahatları bir-birini təkrarlayan dövlət və hökumət qurumlarının ya birləşdirilməsi, ya da birinin ləğvini tələb edir. Baş nazir və Nazirlər Kabinetinin referendumdan sonra ölkənin idarəçiliyində hansı şəkildə iştirakına da yəqin ki, dəqiq aydınlıq gəlməlidir və gələcək.**

## Tahir Kərimli: "Baş nazirlər ikinci şəxs olanda bəzən meylli olurlar ki, prezident hakimiyyəti zəifləsin, prezidenti əvəz eləsinlər və hakimiyyətə gəlsinlər"

**Deputat Tahir Kərimli** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, baş nazir ancaq hökumətə rəhbərlik edib, ölkənin iqtisadiyyatı və onun inkişaf etdirilməsi ilə məşğul olmalıdır. Baş nazir institutu ilə paralel olaraq vitse-prezidentlik institutunun yaradılması lazımdır: "Dünyada, Azərbaycanın ətrafında gedən prosesləri izlədikdə görürük ki, elə bir zaman yetişib ki, ölkənin maraqları prezident idarəçiliyi üsulunun möhkəmləndirilməsini zəruri edir. Biz bunu həm başqa ölkələrin, həm də öz ölkəmizin təcrübəsində görmüşük ki, Ali Sovetin, Milli Məclisin sədri, baş nazir prezidentin səlahiyyətini icra etmək səlahiyyətlərinə malik olanda müəyyən ciddi problemlər ortaya çıxır, çaxnaşmalar baş verir. Baş nazirlər ikinci şəxs olanda onlar bəzən meylli olurlar ki, prezident hakimiyyəti zəifləsin, prezidenti əvəz eləsinlər və hakimiyyətə gəlsinlər. Bax bu cür məsələləri önləməkdən ötrü vitse-prezidentlik yaradılır. Baş nazir güclü olsun, amma iqtisadiyyatla, təsərrüfatla məşğul olsun, daha prezidentin yerinə keçmək eşqi ilə yaşamasın. İstənilən baş nazir bilməlidir ki, hətta prezident olmasa belə onu əvəz eləməyəcək.

Vitse-prezidentlik institutu gözlənilən xoşagəlməz hadisələri dəf etməyə xidmət edir. Çünki baş nazir biləcək ki, ölkə başçısı ölkəni idarə edə bilmədikdə, onun vəzifəsini baş nazir deyil, birinci vitse-prezident icra edəcək. Bu institutun yaradılması xoşagəlməz meyllərin qarşısını almağa xidmət edir. Ona görə də baş nazir ancaq hökumətə rəhbərlik edib, ölkənin iqtisadiyyatı və onun inkişaf etdirilməsi ilə məşğul olmalıdır. Daha siyasi ambisiyalara uyub hakimiyyəti ələ keçirməyə yox. Bəzən baş nazirlər prezidenti devirmək üçün fürsət güdür. Dünyada belə praktika var. Baş nazir hakimiyyəti ələ keçirmək eşqinə düşüb, hakimiyyət çevrilişi və ya buna cəhd edib. O baxımdan, Azərbaycanda elə bir qarışıq sistem yaradılır ki, baş nazir ancaq iqtisadiyyatla məşğul olur və siyasi idarəetməyə müdaxilə etmir. Vitse-prezidentlik institutu isə bu təhlükələri önləmək üçün yaradılan institutdur. Bu dəyişiklik də ölkədə sabitliyin qorunmasına, dövlətçiliyin daha yaxşı idarə olunmasına və ölkə başçısına qarşı yönələn təhlükələrin aradan qaldırılmasına, ona mane olmağa xidmət edən dəyişikliklərdir. Bu baxımdan, mən bu dəyişiklikləri müsbət dəyişiklik hesab edirəm. Azərbaycanın maraqları tələb edir ki, ölkə daha çevik idarəetmə aparatına malik olsun. Qanuna ediləcək dəyişikliklər də buna xidmət edir".

**T.Kərimli qeyd etdi ki, bəzi müxalifət qurumlarının konstitusiyaya ediləcək dəyişikliklərlə bağlı irəli sürdüyü iddialar daha çox subyektiv siyasi mövqedir:** "Mən irəli sürülən bütün fikirlərlə tanışam. Subyektiv siyasi mülahizələrlə çıxış edənlərin təklif edilən dəyişikliklərlə bağlı hüquqi əsaslandırması





demək olar ki, yoxdur. Daha çox siyasi əsaslandırma müşahidə edirəm. Siyasi əsaslandırma bundan ibarətdir ki, konstitusiyaya ediləcək bu dəyişikliklərdən sui-istifadə oluna bilər. Siyasi əsaslandırma müxalifətin hüququdur. Müxalifət siyasi cəhətdən razı olmadığı məsələlərə siyasi əsaslandırma edə bilər. Hüquqi cəhətdən əsaslandırmalara isə hiss edilir ki, çətinlik çəkirlər. Çünki burada hüququn pozulması yoxdur. Konstitusiyaya təklif edilən dəyişikliklər insan hüquqları əleyhinə deyil. Təkliflər dövlət idarəçiliyinin daha da təkmilləşməsinə xidmət edir.

Təkliflər sırasında məni narahat eləyən bir məsələ, vətəndaşın mülkiyyətində olan, lakin istifadə edilməyən torpaqların dövlət ehtiyacı yarandığı halda alınması və vətəndaşı həmin mülkiyyətdən məhrumetmə məsələsinin əksini tapmasıdır. Məncə, bunu elə qanunlarla möhkəmləndirmək lazımdır ki, konstitusiyaya daxil ediləcək həmin ifadədən kimlərsə sui-istifadə etməsin. Mən sui-istifadə edilməsindən narahatam. Narahat olduğum digər məsələ Milli Məclisin üzvünün parlamentdə etik qaydaları pozduğu üçün səlahiyyətlərinə xitam verilməsi məsələsinin qoyulmasıdır. Bu da hər hansı bir deputatın hüququnun pozulması üçün sui-istifadəyə yol aça bilər. Arzu edərdim ki, həmin maddə qanunda daha aydın olsun və sui-istifadə üçün açıq olmasın".

**Milli Məclisin Sosial siyasət komitəsinin sədri Hadı Rəcəbli isə modern.az-a müsahibəsində deyib ki, I vitse-prezidentlik və vitse-prezidentlik olacaqsa, artıq Nazirlər Kabinetinin və Prezident Administrasiyasının səlahiyyətlərinə də ciddi şəkildə aydınlıq gətirilməlidir:** "Əslində konstitusiyada Nazirlər Kabinetinin və Prezident Administrasiyasının vəzifə və səlahiyyətləri öz əksini tapıb. Sadəcə olaraq, bu məsələdə prezidentin direktiv sənədlərində, normativ hüquqi aktlarında, sərəncam və fərmanları ilə bu qurumların səlahiyyətləri düzgün bölüşdürülməlidir.

Lazımsız qurumların, təkrarçılığın və məmur kütləviliyinin qarşısı birmənalı şəkildə alınmalıdır. Hər yanda gözünü açırsan, görürsən məmur işə gəlib-gedir və maaş alır. Konstitusiya dəyişiklikləri ilə inzibatçılığın azalmasına, idarəetmədə şəffaflığın artmasına, struktur islahatlarına rəvac verilməli və məmur təkrarçılığının qarşısı alınmalıdır. Prezident Administrasiyası ilə Nazirlər Kabineti arasındakı səlahiyyət bölgüsünə ciddi bir aydınlıq gəlməlidir. Ola bilsin ki, administrasiya və Nazirlər Kabinetinin bir sıra səlahiyyətləri vitse-prezidentliyə verilsin. Çünki idarəçilikdə yarana biləcək bu cür təkrarçılıqdan qaçmaq lazımdır. Bu məsələlərə çox ciddi baxmaq lazımdır. Düzdür, indiki referendumla Nazirlər Kabineti saxlansa da, hesab edirəm ki, təkrarçılığa ehtiyac yoxdur və bu sahədə olan səlahiyyət bölgülərinə tam aydınlıq gəlməlidir.

Çünki bu gün Nazirlər Kabinetində və Prezident Administrasiyasında da aqrar, sosial və iqtisadi bölmələr var. Belə təkrarçılığın qarşısı alınmalıdır".

> **Hadı Rəcəbli:** "İndiki referendumla Nazirlər Kabineti saxlansa da, hesab edirəm ki, təkrarçılığa ehtiyac yoxdur və bu sahədə olan səlahiyyət bölgülərinə tam aydınlıq gəlməlidir"

❑ **Etibar SEYİDAĞA**

# Referendumdan sonra növbədənkənar prezident seçkisi - iddia

## Hakimiyyətə yaxın siyasətçilərdə və müxalifət liderlərində "ölkə növbədənkənar seçkiyə gedəcək" rəyi güclənir

**Mərkəzi Seçki Komissiyasının (MSK) "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi məqsədilə 2016-cı il sentyabrın 26-na təyin edilmiş ümumxalq səsverməsinin (referendumun) hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim Planı"nı təsdiq edilib.**

Təqvim planına əsasən referendumla bağlı bildirişlərin çap olunması avqustun 17-də başa çatacaq. Səsvermədə "exit-poll" keçirmək istəyən təşkilatlar sənədləri sentyabrın 6-na kimi təqdim edə bilərlər. Səsvermə günü seçici fəallığı ilə bağlı gün ərzində 5 dəfə məlumat veriləcək. Referendumun yekun nəticələri oktyabrın 21-dək açıqlanacaq.

Referendumda vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən və qərarlardan şikayətlərin araşdırılması məqsədilə Mərkəzi Seçki Komissiyası nəzdində 9 nəfərdən ibarət ekspert qrupu və Ədliyyə, Daxili İşlər, Maliyyə nazirliklərinin ekspertlərindən ibarət işçi qrupu yaradılıb.

Referendumdan sonra isə ölkədə növbədənkənar prezident seçkilərinin keçirilib-keçirilməyəcəyi istiqamətində mediada müzakirələr başlayıb.

**Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının (BAXCP) sədri, deputat Qüdrət Həsənquliyev ölkədə növbədənkənar prezident seçkilərinin keçirilməsi ehtimalının olduğuna işarə edib. O, publika.az saytına müsahibəsində deyib ki, növbədənkənar prezident seçkilərinin keçirilməsi labüddür:** "Proqnoz vermək yaxşı məşğuliyyət sayılmasa da, qənaətimcə, növbədənkənar prezident seçkilərinin keçirilməsi labüddür. Doğrusunu isə göydə Allah, yerdə prezident bilir".

**YAP-ın sədr müavini-icra katibi, baş nazirin müavini Əli Əhmədovun da "Azərbaycan" qəzetinə müsahibəsində verdiyi açıqlamadan belə anlaşılır ki, referendumdan sonra növbədənkənar prezident seçkiləri keçirilməsi gözlənilir. Ə. Əhmədov qeyd edib ki, Afrikanın şimalında və Yaxın Şərqdə baş verən inqilablar və savaşlar, dəhşətli miqyas almış beynəlxalq terrorizm, Avropaya axan böyük insan köçü, humanitar fəlakətlər və kütləvi insan faciələri dünyanın mənzərəsini dərindən və yəqin ki, birdəfəlik dəyişib. Sadalanan dünya problemləri bütün dövlətlər kimi, Azərbaycanın qarşısında da ciddi çağırışlar irəli sürür:** "Həm daxili, həm də beynəlxalq aləmdə səbəblər toplusu geniş və əhatəli islahatların aparılmasını zərurətə çevirib. Bu islahatların keçirilməməsi, hətta gecikməyə yol verilməsi ölkəmizin daha ciddi çağırışlarla üz-üzə qalmasına gətirib çıxara bilər. Dərin iqtisadi islahatlar siyasi sistemin müvafiq şəkildə təkmilləşdirilməsini, sadəcə olaraq, qaçılmaz edir. Əks halda, həyata keçirilən iqtisadi islahatlar yarımçıqlıq kompleksindən xilas ola bilməyəcək. Çevik, müasir, inkişafın keyfiyyətcə yeni mərhələsinə keçidi hədəfə alan iqtisadi idarəçilik mexanizminin yaradılması təbii olaraq siyasi sistemin təkmilləşdirilməsini mühüm şərt olaraq irəli sürür. Prezident İlham Əliyevin konstitusiyada bəzi dəyişikliklərin edilməsi ilə əlaqədar referendum keçirilməsi təşəbbüsü buradan qaynaqlanır. Mən bu təşəbbüsü böyük hədəflərə yönəlmiş və vaxtında atılmış addım hesab edirəm. Əsas niyyət milli, dövlət maraqlarının qorunması və reallaşması üçün müasir iqtisadi və siyasi mexanizmlərin təmin edilməsidir. Bir sözlə, konstitusiya dəyişiklikləri təklifi siyasi sistemin və idarəetmənin təkmilləşdirilməsi məqsədini daşıyır".

**Artıq müxalifət düşərgəsində də ölkədə növbədənkənar prezident seçkisinin keçiriləcəyi rəyi formalaşıb.**

**Müsavat Partiyasının başqanı Arif Hacılı "Yeni Müsavat"a bildirdi ki, hakimiyyətin tələsik olaraq referendum keçirmək istəyi ölkədə növbədənkənar prezident seçkiləri keçirilməsi təşəbbüsünün də irəli sürülmə ehtimallarını gücləndirir:** "Ancaq biz, hər halda, referendumun keçirilməsinə qarşı çıxmağa və bu referendum nəticəsində ölkədə dövlət quruluşu sisteminin dəyişdirilməsinin qarşısını almağa çalışacağıq. Biz hesab edirik ki, mümkün qədər tez parlamentli respublika sisteminə keçmək Azərbaycan cəmiyyətinin və dövlətin maraqlarına xidmət edir".

**Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn bildirdi ki, konstitusiyada yeni təklif olunan dəyişiklik ölkə prezidentinə növbədənkənar prezident və parlament seçkiləri təyin etmək hüququ verir:** "Böyük ehtimalla 26 sentyabr referendumundan sonra ölkədə növbədənkənar prezident seçkilərinin keçirilməsi gündəmə gətiriləcək. Bu, gözləniləndir. Son illərdə Qazaxıstanda və digər bu cür prosesin getdiyi ölkələrdə də belə addımlar atılıb".

❑ **Etibar SEYİDAĞA**



# Bağça uşaqları daha safdır

Zamin HACI
zaminhaci@gmail.com

*"Mən gəzərəm ayıq-ayıq,*
*Dəryalarda olur qayıq,*
*Bülbülləri şaha layıq,*
*Gülü gərək yol əhlinin".*

*(Xətai)*

Sentyabrda, bildiyiniz kimi, bizdə referendum olacaq, konstitusiya dəyişdiriləcək. "Bildiyiniz kimi" sözlərini zarafat üçün yazdım, sizin də mənim kimi konstitusiya ilə qətiyyən maraqlanmadığınızı bilirəm. Əslində konstitusiya yox idi, səhər açılmırdı? Heç bizə lazım da deyil. Onsuz lap yaxşı yaşayırdıq. Konstitusiya Amerikaya-zada yaraşır. Bizimki kişi sözüdür. Filankəs kişi kimi dedisə, vəssalam, sözünü yerinə yetirəcək. Bu haqda qədim yunan səyyahı makedoniyalı Puşkinin məşhur sözü vardır, deyir əgər Qafqaza yolun düşsə, gürcülərə inanma, ermənilərə heç inanma, lap notariusda təsdiqlənmiş arayış gətirsə də inanma, ancaq bir azərbaycanlı qabağına çıxsa, hoppan min belinə, səni hara istəsən aparsın... Səhv yazdım, üzürlü sayın, qədim yunanların mətbuat şurasının sədri Platon deyib ki, azərbaycanlılar kişi sözü verdisə, başqa heç bir kağız lazım deyil.

Nə isə, mövzudan uzaqlaşmayaq, yoxsa referendum keçirilər heç xəbərimiz olmaz. Həmin referendumda baxılacaq *(ora-bura baxma, bizdən söhbət gedir, biz səs verib qəbul edəcəyik Allah heç qoymasa, Məzahir Pənahovun xəbəri də olmayacaq)* məsələdən biri də prezidentliyə namizədin yaş həddidir. Hazırda bu, 35 yaş olmalıdır, indi istəyirlər bunu endirib ya 18 eləsinlər, ya da 14. Bəlkə də 9 olacaq. Ya da 7. Dəqiq bilmirəm. Ancaq 14 söhbətinə çox inanıram, çünki dünən YAP liderlərindən biri, baş nazirin müavini Əli Əhmədov deyib ki, Şah İsmayıl Xətai prezident olanda 14 yaşı var idi. Sitat: "Ondan başqa makedoniyalı İsgəndər, Napoleon da uşaq vaxtlarından dövlət başına keçərək analoqu olmayan işlər görüblər, Ümumi Daxili Məhsulun artımına nail olublar".

Doğrudan da İsgəndər Afina-Pelopennes-Kappadokiya-Makedoniya yolunun 20 kilometrlik hissəsinin yenidən qurulması, Napoleon isə Borodino çölündəki təpələrin alınması uğrunda çoxlu işlər görübdür. Ancaq şəxsən mənə qaranlıq qaldı, Əli müəllim 14 yaş deyəndə konkret kimi nəzərdə tutur, növbəti liderimiz hansı 14 yaşlı gənc olacaqdır. Bunu bir az açıq demək lazımdır. Camaat işini bilsin, o qədər yaltaq var, növbəyə durublar, lakin çıxışı "anamız-bacımız"la başlasınlar, yoxsa "atam-qardaşım"la - hələ müəyyən eləməyə çətinlik çəkirlər. Qəfil elan olunanda kim qabağa düşə-düşə. Bu isə ədalətli yarış prinsiplərini pozur. Yaltaqlara şərait yaratmalıyıq, repressiyaya məruz qoymaq düzgün deyil, əks halda sabah bir qrup İTV-AZTV işçisi də Almaniyadan sığınacaq alacaqdır, indiyə qədər çox gördük belə halları...

Əli müəllimin Xətainin 14 yaşını arqument gətirməyində bir balaca tarixi yanlışlıq da var, yazım biləsiniz. Məsələ ondadır ki, Xətainin yaşadığı 16-cı əsrdə orta insan ömrü indikindən fərqli idi. İndi 70-80 ildirsə, o vaxtlar 30-33 idi. Elə Şah İsmayıl özü cəmi 36 il yaşayıb. Yəni, müqayisə eləsək o dövrün 14 yaşı indiki təxminən 80 yaş kimi bir şey olur və bu minvalla Artur Rasizadənin tam ixtiyarı var Səfəvilər dövlətini bərpa edib bizim şahımız olsun.

Hələ onu demirəm ki, Xətai ənənələrini dövlətçiliyimizdə bərpa etsək gərək Türkiyə ilə davaya başlayaq, Çaldıran döyüşü təzədən olsun. Bu isə Ərdoğanla isti münasibətlərimizə heç yaraşmır, təzə-təzə Qafqaz Universitetini bağlamışıq, imkan verin oturaq yerimizdə.

Referendumda milli Bonapartımız tapılsa, Müqəddəs Yelena adasını tapmaq çətinlik törətməyəcək. Bu, yaxşı, sərfəli variantdır. Nargin adasından istifadə edərik.

Günlərimizi, həyatımızı belə maraqlı etdiyi üçün, hər dəfə nəsə orijinal tarixi oyunlar oynadığı üçün hökumətə dərindən minnətdarıq. Vallah, qıraqdan durub baxsan çox maraqlı yerdir. Bir az içində yaşamaq ağır gəlir, ona da dözmək lazımdır, bizim Qarabağ dərdimiz var.



# Qərb Türkiyənin ardınca İranı da qarışdırır

**Orta Şərqdə yaşanan dəhşətlərin ardınca qaynayan Türkiyədən sonra regionun digər böyük ölkəsi İran da qarışıb. Bugünlərdə ölkədə yaşayan milyonlarla türkün təhqir edilməsindən sonra soydaşlarımız kütləvi aksiyalara başlayıblar, çoxsaylı həbslərin olduğu barədə xəbərlər gəlir. Ancaq repressiyalara baxmayaraq, aksiyaların davamlı olacağı barədə xəbərdarlıqlar da edilib.**

Təbriz, Urmiyə və digər şəhərlərdəki aksiyalarda "Haray, haray, mən türkəm!", "Ölüm olsun farsizmə!", "Azərbaycan milləti, çəkəmməz bu zilləti!" kimi şüarlar səsləndirilib. Aksiyaçılar İranın "Tərh-i No" adlı qəzetinin 20 iyul tarixli buraxılışında Firdovsinin "Şahnamə" əsərinin qəhrəmanlarının dili ilə türklərin "bədbəxt", "irqi pis" kimi təqdim olunmasına etiraz edib. Qəzetin müdiri, əslən azərbaycanlı olan Amir Əlizadə təxribatçı yazı ilə əlaqədar hər kəsdən üzr istəyib və açıqlama verərək bildirib ki, müxbir yanlışlıqla həmin məqaləni dərc edib. Lakin yazının müəllifi Süleyman Əfşar Tikabi əməlindən peşman olmadığını, yazısının türklərə aid olduğunu bildirib. O, xüsusilə vurğulayıb ki, azərbaycanlılar türk sayılmır. Bu arada ötən ilin noyabr ayında türkləri təhqir edən "Fitilə" verilişinin üzvləri mükafatlandırılıb. İyulun 25-də Firdovsi dərnəyi və İslami İrşad və Mədəniyyət Nazirliyi "Fitilə" qrupunun üzvlərini "Uşaq və yeniyetmələr üçün ən yaxşı proqram hazırlayan" qrup elan edərək mükafatlandırıb. Xatırladaq ki, İran televiziyasının 2-ci kanalında yayımlanan "Fitilə" adlı televiziya verilişində türklər təhqir olunmuşdu. Türklərə qarşı həqarətlərə yol verilməsinə əvvəlki illərdə də rast gəlinib. Belə ki, 2006-cı ildə türklər tarakana bənzədilmişdi və o zamankı aksiyalarda ölən və yaralananlar olmuşdu. Belə iddialar var ki, son günlər Türkiyədəki çevriliş və terror hadisələrinin ardınca regionun nisbətən sabit ölkələrindən olan İranda təxribatlara əl atılması planlı şəkildə həyata keçirilən hərəkətdir. Təbii ki, İran dövlətinin daxildə gərginliyə yol aça biləcək təxribatlarda maraqlı olması inandırıcı görünmür. Bu mənada iddialar var ki, ölkənin ən böyük toplumu olan türklərə qarşı bu kimi təxribatların arxasında kənar qüvvə var. Bundan əvvəl Urmiyə bölgəsində kürd silahlıları ilə ölümlə nəticələnən böyük toqquşmalar da baş vermişdi. Hətta Qərb dairələrinin Türkiyənin ardınca bölgənin digər iri ölkəsi İranı da daxildən qaynatdığını iddia edənlər var. Əgər belədirsə, ABŞ bölgənin iri ölkələrini niyə qarışdırır, məqsəd nədir? İranın parçalanması planımı işə salınıb? Yoxsa Qərb sanksiyalardan azad etdiyi Tehranın Rusiya ilə koalisiyada olmasını qəbul edə bilmədiyi üçün hərəkətə keçib? Ən çox narahatlıq doğuran budur ki, yenə də meydanlara Azərbaycan türkləri çıxıb və rejimlə üz-üzə gəlib itki verənlər yenə də qan qardaşlarımız olacaq, sonucda isə hansısa paytaxtlar qazanc əldə edəcəklər.



**Arzu Nağıyev:** "Həyata keçirilə biləcək iqtisadi və digər layihələrə nəzarət etmək, daha doğrusu, nüfuz sahibi olmaq üçün bu taktikadan istifadə edilir"



**Elxan Şahinoğlu:** "Əgər belə olsaydı, İrandakı rejim çoxdan dünyaya car çəkərdi ki, Amerika İranı daxildən qarışdırır"

**Bu fikirləri bölüşən politoloq Arzu Nağıyev "Yeni Müsavat"a dedi ki, burada Türkiyə ilə müqayisədə fərqli bir amil var:** "Gördüyünüz kimi, Türkiyədə ordunu qaldırmağa cəhdlər oldu. Ancaq maraqlı qüvvələr İranda hər hansı bir iğtişaş üçün əsasən milli münasibətlərdən istifadə etməyə çalışırlar. Təbii ki, bu da milli və dövlət təhlükəsizliyinə təhdidin bir növüdür. İranda bu formada bir neçə dəfə cəhdlər olub. Son hadisəyə gələndə isə Təbrizdə nəşr edilən "Tərh-i No" adlı qəzetin 20 iyul sayında Firdovsinin "Şahnamə" əsərinin qəhrəmanlarından birinin dili ilə türklərin "bədbəxt", "irqi pis" kimi təqdim olunması məsələsi qadardılır. Maraqlısı da odur ki, bunu yazan Süleyman Əfşar Tikabi adlı müxbirin özü də azərbaycanlıdır. Məlumdur ki, türk məsələsi İranda və daha doğrusu, İran Azərbaycanında çox həssas qəbul edilən məsələdir. Bundan da maraqlı dövlətlərin xüsusi xidmət orqanları ustalıqla istifadə edir. Yəni səbəb çox dərinlərdə olsa da, bəhanə var. Belə variantlarla irqi ayrı-seçkilik salmaq, bununla da xalqı ayağa qaldırmaq cəhdi kimi variantlardan istifadə edilir". **A.Nağıyevin fikrincə, məhz bu proseslərin regionda baş verməsi də məntiqlidir:** "Türkiyə-Rusiya yaxınlaşması baş verir, İran Rusiyanın müttəfiqidir, Türkiyədə və Ermənistanda qeyri-stabil vəziyyətdir. Bütün bunlardan Qərbin öz maraqları üçün istifadə etməsi mümkündür. Digər tərəfdən, sanksiyalar götürüldükdən sonra İranda maraqları olan Qərb və digər dövlətlər də var. Məhz bunların apardıqları rəqabət də bu proseslərə səbəb ola bilər. Zənnimcə, həyata keçirilə biləcək iqtisadi və digər layihələrə nəzarət etmək və daha doğrusu, nüfuz sahibi olmaq üçün bu taktikadan istifadə edilir".

**Politoloq Elxan Şahinoğu isə hesab edir ki, Türkiyənin və Azərbaycanın qonşusu olan İranda vəziyyətin gərginləşməsi gözlənilən idi:** "İranın "Tərh-i No" adlı qəzetinin 20 iyul tarixli buraxılışında azərbaycanlıların təhqir olunması, "bədbəxt", "irqi pis" kimi təqdim edilməsi azərbaycanlılara qarşı təxribatın növbəti seriyasındandır. İranda hər dəfə bu cür hallardan sonra fəal azərbaycanlılar küçələrə çıxır və etirazlarını ifadə edirlər. Bu dəfə də belə oldu. Ötən həftə Urmiya və Təbriz şəhərlərində küçə nümayişləri keçirildi. Həbs olunanlar var. İranda azərbaycanlılar ilk dəfə deyil ki, təhqir olunurlar. 2006-cı ildə İran qəzetlərinin birində karikaturada türklər tarakana bənzədilmişdi. 2015-ci ilin noyabrında isə İranın televiziya kanallarının birində türkləri təhqir edən veriliş yayınlanmışdı. Hər təhqirdən sonra qəzetlər və televiziyalar azərbaycanlılardan üzr istəsələr də, eyni təhqirlər yenə təkrarlanır. Bu ondan xəbər verir ki, İran rejimi bu prosesin qarşısını almaq istəmir. İran demokratik ölkə deyil, dini rejim bütün proseslərə nəzarət edir. Demək, əgər dini rejim istəsə, azərbaycanlıların təhqir olunmasına son qoya bilər. Sadəcə, rejim bunu istəmir". **Ancaq E.Şahinoğlu hesab edir ki, İrandakı bu proseslərin arxasında xarici qüvvələrin olduğunu söyləmək çətindir:** "Əgər belə olsaydı, İrandakı rejim çoxdan dünyaya car çəkərdi ki, Amerika İranı daxildən qarışdırır. İranı qarışdıran, irqi ayrı-seçkilik salan və milli ədavəti qızışdıran rejimin özüdür, hakimiyyətin mahiyyətidir. Bununla İranda yaşayan fəal azərbaycanlıları müəyyənləşdirib onları neytrallaşdırmağa çalışırlar. Ancaq nə qədər fəal azərbaycanlı həbs olunsa da, ardı gəlir. Ona görə də İran rejimi odla oynayır".

**AMEA-nın Tarix İnstitutunun aparıcı elmi işçisi, Bütöv Azərbaycan Ocaqlarının sözçüsü Dilavər Əzimli isə moderator.az-a deyib ki, İrandakı rejim ağlını itirib:** "Onu SSRİ-nin aqibəti gözləyir... Azərbaycanın güneyində yaşayanlar bundan ciddi ziyan çəkə bilərlər. Bu mənada Azərbaycanın quzeyinin üzərinə böyük məsuliyyət düşür. Bu tayda o tayla bağlı təşkilatlanma sürətlənməlidir. Hesab edirəm ki, biz yaxın zamanlarda o tayda milli və insan haqlarının pozulması ilə bağlı imza kampaniyasına başlayıb onu dünyanın beynəlxalq təşkilatlarına təqdim etməliyik. Bu, bizim müqəddəs borcumuzdur. Çünki türkü təhqir edən bizim ata-babalarımızı təhqir edir!"

❑ **Cavid TURAN**

YENİ MÜSAVAT
N 164 (6485) 29 iyul 2016

# Ermənistandakı kritik proseslərin labüd diktəsi




# Sərkisyan istefaya hazırlaşır - "Moskvanı da bezdirib..."

## İrəvanda polis binasına silahlı basqından sonra başlanan gərginlik davam edir; işğalçı ölkədə hakimiyyət dəyişikliyi nə vəd edir? İqtidara gələcək istənilən qüvvə Rusiya ilə hesablaşmaq zorundadır, çünki...; **Kremlə yaxın ekspert:** "Ermənistan partlayış həddindədir"

**Ermənistanda iyulun 17-də İrəvandakı polis binası silahlı qrup tərəfindən ələ keçiriləndən sonra yaranan kritik durum davam edir. Situasiyanı hakimiyyət üçün qəlizləşdirən ən mühüm amillərdən biri narazı əhalinin mühüm bir hissəsinin rejimə radikal mövqedə olan həmin silahlı qüvvələrlə həmrəylik nümayiş etdirməsi, ən radikal müxalifət kimi tanınan kəsimə dəstək verməsidir - baxmayaraq ki, polis və Milli Təhlükəsizlik Xidməti belə dəstək aksiyaların yolverilməzliyi barədə ciddi xəbərdarlıq edib.**

Narazı toplumdan güc aldığı üçün də silahlı qrup öz siyasi tələblərindən geri çəkilmək istəmir. Bu üzdən dünən də paytaxt İrəvanda gərgin keçib. Silahlılara dəstək və etiraz aksiyaları fasilələrlə davam edib. Bu aksiyalarda əsas tələblər sırasında prezident Serj Sərkisyanın istefası önə çıxmaqdadır. Hakimiyyət isə yaranmış böhranlı durumda aciz görünməmək və simasını saxlamaq üçün aksiya iştirakçıları arasında həbslər həyata keçirməkdədir.

Xəbər verdiyimiz kimi, tutulanlar arasında ASALA terrorçusu Alik Yeniqomşyan da var. Onun harada saxlandığı barədə mətbuata məlumat verilməyib. Polislə atışmada yaralanan başqa bir silahlı şəxs - Pavel Manukyan isə əməliyyatdan çıxar-çıxmaz aclıq aksiyasına başladığını bəyan edib. Rusiyanın "Kommersant" qəzetinin xəbərinə görə, Manukyanın vəkili İnessa Petrosyan onun ittihamları qəbul etmədiyini və aclıq aksiyasına başladığını söyləyib.

***

Bəs hadisələrin labüd sonluğu necə görünür? Düşmən ölkədə son baş verənlər bu xüsusda yerli və xarici siyasi ekspertlərin də maraqlı rəy və şərhlərinə səbəb olub.

"Ermənistanda hakimiyyət dəyişikliyi olmasa, situasiya normallaşmayacaq". Bu barədə İrəvandakı mətbuat konfransında müxalif mövqeli "Öz müqəddəratını təyinetmə" Birliyinin rəhbəri Paruyr Ayrikyan jurnalistlərə açıqlamasında ölkədəki son prosesləri dəyərləndirərkən deyib.

Onun sözlərinə görə, hakimiyyət konflikti qansız həll etməklə bağlı vədinə xilaf çıxıb və dinc insanlara güllə atmağa başlayıb. **"Bu isə o deməkdir ki, onlar başlarını itiriblər və sübut edirlər ki, mövcud hakimiyyətə inanmaq olmaz. Ancaq iqtidar başa düşməlidir ki, indi adamları öldürmək onun üçün çox əlverişsizdir"** - Ayrikyan qeyd edib. Siyasətçi dövlət binasını silahlı yolla ələ keçirmiş şəxslərə qarşı hakimiyyətin güc tətbiq edəcəyini də istisna edib. **"Binanı tutanlar hakimiyyət dəyişməyincə oranı tərk etməyəcək"**, - deyə o xəbərdarlıq edib.

***

Vəziyyətə Rusiyadan olan ekspert baxışları da maraqlıdır. Məsələn, Rusiyadakı nüfuzlu "Valday" Klubunun eksperti **(bu Klubun illik müzakirələrinə prezident Vladimir Putin də qatılır)**, REA-nın Beynəlxalq Təhlükəsizlik Problemləri İnstitutunun aparıcı elmi əməkdaşı, Lomonosov adına Moskva Dövlət Universitetinin (MQU) dünya siyasəti fakültəsinin dosenti Aleksey Fenenko hesab edir ki, Kremldə də Sərkisyandan narazılıq artıb: **"Ancaq biz əgər daima Ermənistana təzyiq eləsək, o zaman Ermənistan sadəcə, partlayacaq və biz daha bir anti-Rusiya dövləti qazanacağıq"**.

Analitik fikrini daha detallı izah eləmək üçün Qarabağ problemi ətrafındakı son duruma diqqət yönəldib: **"Dağlıq Qarabağ məsələsində Moskvanın mövqeyi Azərbaycana daha yaxındır, nəinki Ermənistana. Rusiyanın mövqeyi üç məqamdan ibarətdir: birincisi, biz Azərbaycanın ərazi bütövlüyünü, Dağlıq Qarabağın onun tərkib hissəsi olduğunu rəsmən tanıyırıq. İkincisi, biz problemin hərbi yolla həllinə qarşıyıq. Üçüncüsü isə Rusiyanın və KTMT-nin Ermənistana verdiyi zəmanətlərdən heç biri Qarabağ məsələsində işləmir. Bunu başa düşmək üçün Rusiya XİN-in bəyanatını oxumaq kifayətdir"** - ekspert qeyd edib.

Onun fikrincə, aprel ayında təmas xəttində situasiyanın qəfil kəskinləşməsi nizamlamaya dair Madrid prinsiplərini tamamilə basdırıb və Azərbaycan ordusunun gücünü açıq şəkildə nümayiş etdirib. "Azərbaycan bununla göstərdi ki, müharibənin nəticələri heç də bütün bu illər ərzində Ermənistanda bir çoxlarına göründüyü kimi deyil, müharibə bitməyib. Üstəlik, Azərbaycan sübut elədi ki, döyüş əməliyyatları başlayarsa, real cəbhəni yarıb müharibəni Dağlıq Qarabağın içərilərinə keçirə bilər" - Fenenko vurğulayıb.

Rusiyalı ekspert son olaylar fonunda da hesab edir ki, hazırda Moskva Azərbaycandan daha çox Ermənistana təzyiq edir. **"Ermənistan prezidenti Serj Sərkisyan Dağlıq Qarabağ ətrafındakı əraziləri Azərbaycana qaytarmalı olacaq"** - təhlilçi qeyd edib. Məsələ də ondadır ki, Sərkisyanı ən çox narahat edən, onu heç vaxt olmadığı qədər istefa haqda düşünməyə vadar edən, siyasi və hərbi opponentlərinin mövqeyini isə gücləndirən də bu sərt gerçəklikdir.

Qarabağa dair son danışıqların detallarının ciddi şəkildə gizlin saxlanmasının səbəblərinə gəlincə, analitik **"Rusiyada Ermənistandakı qaynar başlardan çox ehtiyat edirlər"** deyib. **"Rusiya hakimiyyəti öz ölkəsinin ictimaiyyətindən də ehtiyatlanır ki, Kreml daha bir müttəfiqini satmaqda suçlana bilər. Bu üzdən istənilən konkretlik situasiyanı partlada bilər"** - politoloq sonda əlavə edib.

***

Beləliklə, İrəvandakı kritik proseslərdə bilavasitə Qarabağ məsələsinin mərkəzi faktor, proseslərin "detonatoru" kimi çıxış etdiyinə şübhə qalmır. Ancaq Ermənistanda Dağlıq Qarabağ məsələsində radikal mövqe tutan bir dəstəni - "Qarabağ klanı"nı digər, daha radikal bir dəstə əvəzləsə, nə dəyişəcək? Aydındır ki, o halda işğalçı ölkə kövrək sülh danışıqlarından da çıxmış olacaq. Demək, müharibə variantı bütün ciddiliyi ilə gündəmə gələcək. Bu mühəribədən isə nəinki Sərkisyan rejimi, iqtidarlı-müxalifətli bütövlükdə Ermənistan çıxa bilməyəcək.

O ki qaldı Serj Sərkisyanın taleyinə, yaranmış situasiyada onun istefası doğrudan da labüd sonluq kimi görünür. Lakin bir şey var ki, onu əvəzləyəcək istənilən qüvvə Rusiya amili ilə hesablaşmaq zorundadır. Əks halda, Ermənistan adında dövlət olmayacaq.

❑ **Siyasət şöbəsi**

# Bitən neft dövrü və başlayan yeni mərhələ



**Elşad MƏMMƏDLİ**

**Hazırda dünyanın ən sakit ölkələrindən biri də Azərbaycandır. Qos-qoca Avropada belə insanların rahat yaşayışı pozulubsa, ABŞ-da da hər an terror təhlükəsi varsa, bizim dövlətimizdə sabitliyin hökm sürməsi bəlkə də Allahın bizə lütfüdür. Ancaq dövlətin özünün də çabalarını, stabilliyi qorumaq üçün xarici siyasətlə bağlı manevrlərini görməmək mümkün deyil...**

Yerləşdiyi coğrafi məkana görə hər zaman böyük güclərin diqqətində olan, daim "yağlı tikə" kimi baxılan, 20 faizi işğal olunan Azərbaycan etiraf edilməlidir ki, bunlara rəğmən, məngənələrdə boğulmur! Kifayət qədər mövqeləri möhkəmlənmiş durumdadır dövlətimiz. Əlbəttə, nə qədər ki, Qarabağ işğaldan azad edilməyib, ərazi bütövlüyümüz təmin olunmayıb, burada əmin-amanlıqdan danışmaq da olmaz. Çünki Azərbaycanın hər an öz torpaqlarını işğaldan azad etmək üçün müharibəyə başlamaq hüququ var. Təbii, bu tamamilə başqa kontekstdir...

Şükürlər olsun ki, ən əsası bizdə xaotik çalxalanma yoxdur, terror xofu yaşamırıq. Bütün dünyanı bürüyən iqtisadi çətinliklərin, qlobal böhranın fonunda, bəzi ziyanlar, geriləmələr görsək də, ayaqda durmağı bacarırıq.

Eyni zamanda müşahidələr göstərir ki, ölkədə tamamilə yeni bir mərhələ başlayıb. Hələ il yarım öncə - dünyada neftin qiyməti 140 dollardan 40 dollara enəndə - rəsmi səviyyədə elan edildi ki, artıq neft dövrü geridə qalır və biz yeni proqramlar üzərində işləməliyik. Burada söhbət aqrar ölkəyə çevrilməkdən, turizm açılımından və sairdən gedir. Görünən budur ki, qeyd edilən istiqamətlərdə müəyyən addımlar atılır. Hələlik aşkar şəkildə müşahidə edilməsə də, gələn məlumatlar ondan ibarətdir ki, illərdir istifadəsiz qalan torpaqlar iri oliqarxlar, biznesmen-məmurlar tərəfindən alınır, icarəyə götürülür və qısa müddətdə böyük layihələrə start veriləcək. Turizmlə bağlı da yeniliklər var; Azərbaycanda builki qədər turist heç zaman görülməmişdi...

Əlbəttə, manatın dəyərini itirməkdə davam etməsi, dolların milli valyutanı təhdid etməsi də ölkəmizi və xalqımızı narahat edən məsələdir. Amma sirr deyil ki, bu heç də Azərbaycandan asılı olan məsələ deyil... Bu, Amerikanın dünyaya dollar müharibəsi açmasıdır ki, bir "dollar bomba"sı da bizim ölkəmizə düşüb...

Neft bumunun bitməsi hakimiyyəti siyasi islahatlara da vadar etməyə bilməzdi. Çünki artıq hökumətin başı neft pullarına qarışmır, həmçinin hakimiyyəti qorumaq instinkti tam təbiidir. Bu nöqteyi-nəzərdən iqtisadi-sosial sferada baş verənlərdən daha çox siyasi-ictimai sahədə baş verənlər diqqəti cəlb edir. Xüsusi ilə Türkiyədə baş verənlərdən sonra ölkəmizdə siyasi baxımdan bir hərəkətlilik müşahidə edilməkdədir. Əlbəttə ki, söhbət referendum elan edilməsindən, konstitusiyamıza ediləcək mühüm dəyişikliklərdən dolayı yaşanan canlanmadan gedir...

Uzun illərdir hökm sürən süstlük 2015-ci ilin parlament seçkiləri zamanı da aradan qalxmamışdı. Çox sakit, dinməz bir ənənəvi seçki oldu. Düzü, həmin vaxt bir daha təsdiq olundu ki, bu ölkədə müxalifət artıq yox səviyyəsindədir və bütün siyasi-ictimai proseslər hakimiyyət tərəfindən yönəldilir, xalqı isə siyasi səhnədə nə baş verməsi maraqlandırmır.

Referendum məsələsində də müxalifətin hələlik səsi çıxmır və qarşıdakı müddətdə ciddi bir təsiri olacağı da inandırıcı deyil. Amma 2015-dən fərqli olan bir məqam var; ölkədə idarəetmə sisteminin köklü dəyişilməsi, vitse-prezidentlik institutunun yaradılması, eyni zamanda "referendumdan sonra Milli Məclis buraxılacaq, yeni simaların da yer aldığı, tam fərqli bir parlament formalaşdırılacaq" kimi xəbərlərin dövriyyəyə girməsi xalqın müəyyən kəsimində bir maraq oyadıb. Əslində, bizim cəmiyyətimiz deyildiyi qədər də apolitik deyil. Bəzən bir kənd adamının ölkədəki proseslərə dair verdiyi şərh adamı heyrətə gətirir...

Bu baxımdan neft dövrünün başa çatmasının yeni siyasi-iqtisadi mərhələnin başlaması ilə nəticələndiyi göz önündədir. İstənilən halda bu baş verənlər bütövlükdə ölkənin "yuxudan ayılması", cəmiyyətdə aktivliyin yaranmasına səbəb olubsa, buna sevinmək lazımdır. Ən azı hansısa bir yenilik baş verəcək, referendumda nəticədən asılı olmayaraq, xalq kütlələri aktivləşəcək, siyasi qurumlarda istər-istəməz canlanma yaranacaq. Həmçinin, istər sadə vətəndaşa, istərsə də siyasi maraqları olanlara maraqlıdır ki, referendumun nəticəsi nə olacaq, vitse-prezidentlik nə kimi yeniliklər gətirəcək, daha sonra parlament buraxılsa, yeni deputat seçkisi keçirilsə nə olacaq, yeni deputatlar kim olacaq...

Əgər ölkədə siyasi müxalifət sıradan çıxıbsa, onun hansısa bir gücü, təsir imkanları qalmayıbsa, müqavimət göstərmək həvəsi belə hiss olunmursa, belə durumda hakimiyyət özü siyasi aktivlik yaradan addım atırsa, nəticələrdən daha çox, hətta kiçik dəyişiklərin belə faydalı olacağına ümidlənməkdən başqa yol qalmır...

Ümid varsa, gələcək də var....

YENİ MÜSAVAT
N 164 (6485) 29 iyul 2016




# Hökumət riskə gedir: 5 milyard borc...

## Ekspertlər bildirirlər ki, hökumət israrla borc axtarmağa və ağır şərtlərlə borclanmağa cəhd edəcək...

**Azərbaycanın xaricdən kredit alması yenidən gündəmdədir. "Moody's" beynəlxalq reytinq agentliyinin "0" proqnozundan sonra bu məsələ yenidən diqqət çəkib. Belə ki, "Moody's" Azərbaycan iqtisadiyyatı üzrə proqnozunu tamam aşağı salıb. Agentlik iyunda verdiyi proqnoza yenidən baxaraq, real Ümumi Daxili Məhsulun ( ÜDM) artımını 1 faizdən 2017-ci ilə 0 faizə qədər endirib. 2016-cı ildə agentlik ÜDM-in 0,7 faizə qədər azalacağını proqnozlaşdırır.**

"Moody's" maliyyə sektorunda vəziyyətin pisləşməsini, devalvasiyanın əhalinin alıcılıq qabiliyyətinə təsirini və ikirəqəmli inflyasiyanın artmasını nəzərə alır. Ölkə iqtisadiyyatının inkişaf sürətinin azalmasına gətirib çıxara biləcək risklərin olduğunu qeyd edib. Azərbaycanın makroiqtisadi proqnozlarının pisləşməsi energetika bazarlarının dəyərləndirilməsi və neft qiymətləri ilə bağlı ümidlərin azalması ilə əlaqədardır. Bundan başqa, "Moody's" Azərbaycanın maliyyə sisteminə təzyiqin artmasını, ödəmə balansının vəziyyətini, milli valyutaya etibarın azalmasını və bank sisteminin dollarlaşmasını qeyd edib.

**Natiq Cəfərlinin sözlərinə görə, beynəlxalq maliyyə qurumlarından kredit axtaran Azərbaycan hakimiyyətinin imkanları daralır:** "Ya ona pul verən olmayacaq, ya da çox yüksək faizlə borc alacaq". O həmçinin deyib ki, bu proqnoz ölkəyə investisiya qoymaq istəyən xarici iş adamlarını ölkədən qaçıracaq. Ölkəyə kapital qoyuluşu zəifləyəcək və gələcəkdə bunun ciddi fəsadları olacaq. Onun sözlərinə görə, getdikcə Azərbaycanın valyuta tələbatını ödəyə bilmək qabiliyyəti tükənəcəyindən manata təzyiqlər davam edəcək, yəni manat dollara nisbətdə daha da ucuzlaşacaq.

**Qubad İbadoğlu isə musavat.com-a açıqlamasında bildirib ki, xaricdən borclanma indiki durumda risklidir:** "Bizim borclanma siyasətimiz, borcun idarə edilməsi də mövcud qanunvericilik çərçivəsində aparılmır. Məsələn, Monteneqroya 175 milyon borc verdik, amma xarici dövlətlərə 106 milyon limit qoyulmuşdu. Limitdən iki dəfə çox borc verdik. Borclanma siyasətimizdə ən böyük problem ondan ibarətdir ki, aldığımız borcların faiz dərəcəsi xeyli yüksək, verdiyimiz borclar isə çox aşağıdır. O demək deyil ki, biz ucuz kredit veririk. O deməkdir ki, borclarımızı yüksək faiz dərəcəsi ilə alırıq. Bu narahatçılıq getdikcə artır və əlavə xərclərin artımını şərtləndirəcək. Çünki Azərbaycanın kredit verimliliyi aşağı düşüb. Ölkənin investisiya cazibədarlığı azalıb. Belə olan halda beynəlxalq maliyyə, kredit təşkilatları ölkələrə çox yüksək faizli kreditlər verirlər. Bu yüksək faizli kreditlərin də qaytarılması məsuliyyəti qalır gələcək nəslin üzərində. Ona görə borc məsələsində ehtiyatlı yanaşmanın tərəfindəyəm. Hazırda aparılan danışıqlara Dünya Bankından 1 milyard, Avropa Yenidənqurma və İnkişaf Bankından 1,5 milyard , Avropa İnvestisiya Bankından 2 milyard və Asiya İnkişaf Bankından 450 milyon dollar vəsaitin cəlb edilməsi, təxminən 5 milyard dollara yaxın vəsaitin cəlb edilməsi üzərində qurulub. Yəni bu vəsait birbaşa hökumətə deyil, hökumətin təminatı ilə şirkətlərə ötürülə bilər. Nəticədə yenə də dövlətin təminatı ilə olan borc sayılır. Bu baxımdan, danışıqlar açıq olmalıdır. Müzakirələrdə Azərbaycan çalışmalıdır ki, həqiqətən ölkənin artan xərclərində borc yükünün təsirini azaltmaq üçün uzunmüddətli və aşağı faizlə borclara girsin. İndiki halda Azərbaycanın götürdüyü öhdəliklərin yerinə yetirilməsində çətinlik yaranacaq".

Ekspertlərin fikrincə, bundan sonra hökumət xaricdən borc almaqda çətinlik çəkəcək, həm də Azərbaycana verilən borcların faiz dərəcəsi yüksək olacaq. Yəni hökumət borc almağa davam edərsə, yaranacaq xərcləri ödəməkdə kifayət qədər çətinlik çəkə bilər. Digər məqam ondan ibarətdir ki, ölkəyə investisiya cəlb etmək heç də asan olmayacaq. Ekspertlər bildirirlər ki, indi ölkənin çox ciddi valyuta, yatırımlara, kreditə ehtiyacı var. Bundan sonra Azərbaycana kifayət qədər yüksək həcmli kreditlər lazımdır. Bu baxımdan, hökumət israrla borc axtarmağa və ağır şərtlərlə borclanmağa davam edəcək...

❑ **Röya RƏFİYEVA**




# ABŞ-dan verilən qərar manatı xilas etdi

## Ekspert: "Çox güman ki, FED-in faiz artımı ilə bağlı qərarına qədər manat 1.65 səviyyəsində olacaq"

**FED uçot dərəcəsini dəyişməyərək 0,25-0,5% səviyyəsində saxlayıb. ABŞ-ın Federal Ehtiyatlar Sisteminin (FED) Açıq Bazar Əməliyyatları üzrə Komitəsinin (FOMC) iki gün davam edən iclası başa çatıb. Ötən dekabrın 16-da FED uçot dərəcəsinin baza dərəcəsini illik 0,25% artırıb. Bundan sonra keçirilən iclaslarda uçot dərəcəsi dəyişdirilməyib.**

Qeyd edək ki, ABŞ-ın Federal Ehtiyatlar Sisteminin (FED) Açıq Bazar Əməliyyatları üzrə Komitəsinin (FOMC) iyunda baş tutan iclasından sonra əmək bazarında müsbət tendensiya müşahidə olunub. İqtisadi aktivliyə gəlincə, burada mülayim artım qeydə alınıb. Bu barədə FOMC-un iki günlük iclasının yekunlarına dair açıqlamada bildirilir. Açıqlamada qeyd edilib ki, iyun ayında məşğulluq sahəsində yüksək artım müşahidə edilib. Həmçinin təsərrüfat subyektlərinin xərcləri də artıb. İnflyasiyanın səviyyəsi 2%-dən aşağı olaraq qalıb. FOMC bunu enerjidaşıyıcılarının qiymətlərinin aşağı düşməsi fonunda energetika sahəsində qiymətlərin azalması ilə əlaqələndirib.

Dünya bazarlarında enerjidaşıyıcılarının qiymətinin aşağı düşməsi bir sıra neft ixrac edən ölkələrin milli valyutalarının, eləcə də Azərbaycan manatının dəyərdən düşməsinə səbəb olub. FED-in uçot dərəcəsinin dəyişməsi dolların ayrı-ayrı ölkələrin milli valyutalarına qarşı möhkəmlənməsinə gətirib çıxarır. Maliyyəçilər hesab edirdilər ki, FED-in uçot dərəcəsini artırması bəzi ölkələrin milli valyutalarının bir az daha dəyərdən düşməsi ilə nəticələnəcək. Bu mənada FED-in faizi artırmaması Azərbaycan manatını da müvəqqəti olaraq yaxın iki ay üçün xilas etmiş oldu. Lakin FED rəsmiləri bu ilin sentyabrında baş tutacaq növbəti iclasda faizin artacağına işarə edib. Bu informasiya isə 2 aylıq aralıq müddətdə dolların dünya bazarında bir qədər də yüksəlməsinə gətirib çıxaracaq.

Bəs görəsən, bu dəfə FED faizi artırsaydı, dünya iqtisadiyyatı və eləcə də Azərbaycan manatı ilə bağlı nə baş verərdi?

**İqtisadçı ekspert Natiq Cəfərli "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, FED-in bu dəfə faizi artırmayacağı öncədən məlum idi:** "FED-in uçot dərəcələrini artıracağı ilə bağlı gözləntisi olmayanlardan biri də mən idim. Bir neçə gün öncədən də bu fikri bildirmişdim. Çünki FED-in budəfəki konfransında heç öncədən mətbuat konfransı da nəzərdə tutulmamışdı. Uçot dərəcələrinin artırılması ilə bağlı qərarların gözlənildiyi toplantıda həmişə mətbuat konfransı planlaşdırılır. Bu dəfə isə sadəcə press-reliz yayıldı və öncədən də bəlli idi ki, uçot dərəcələri artmayacaq".

**Ekspertin sözlərinə görə, faizin artmamasının səbəbi ABŞ iqtisadiyyatının özündə olan bəzi problemlərlə bağlı idi:** "İşsizlik və inflyasiya dərəcəsi tam olaraq FED-in istədiyi səviyyədə deyil. Bundan başqa, Britaniyanın Avropa Birliyindən çıxması ilə bağlı məsələlər tam həllini tapmayıb. Bu məsələdə də qeyri-müəyyənlik var. Bu məsələləri nəzərə alaraq FED faiz dərəcələrini artırmadı. Press-relizdə çox maraqlı cümlələr var idi. O cümlələrdən əsası ondan ibarət idi ki, yaxın gələcəkdə Amerika iqtisadiyyatı yaxşıya doğru gedir və faiz artımı ilə bağlı qərarların olması ehtimalı yüksəkdir. Bu o deməkdir ki, FED il ərazində faizləri bir dəfə qaldırmaqla bağlı qərar verəcək. Uçot dərəcəsi artsa, bu, dollar indeksinin bahalaşmasına səbəb olacaq".

**N.Cəfərli onu da qeyd etdi ki, dollar indeksi bahalaşsaydı, bu, Azərbaycana iki yöndən təsir göstərərdi:** "Bizimlə ticarət tərəfdaşı olan ölkələrin milli valyutalarının ucuzlaşması avtomatik olaraq manata təzyiqi artırar, ikinci isə dolların bahalaşması həmişə xammalların daha da ucuzlaşması ilə müşahidə olunardı. Bu da Azərbaycanın əsas ixrac məhsulu olan neftin qiymətinə mənfi təsir edə bilərdi. Bu iki yöndə təsirlər Azərbaycan manatına təsirləri artıra bilərdi. Yaxın gələcəkdə, FED-in bu qərarı verəcəyini nəzərə alsaq, bu təsirlər qaçılmaz olacaq. Sadəcə, proses 2-3 ay ertələndi. Manatın təzyiq altında qalması gözləniləndi. Azərbaycanın özünün daxili problemləri ilə yanaşı FED-in verdiyi qərarın da təsiri altında qalaraq dəyər itirəcək".

**Manatın konkret olaraq nə qədər dəyər itirəcəyinə gəlincə, Natiq Cəfərli bildirdi ki, Azərbaycanda manatın məzənnəsi bazar qanunlarına uyğun olaraq tənzimlənmədiyi üçün bunu demək çətindir:** "Hökumət manatın üzən məzənnəyə keçdiyini deyir. Lakin məlum olduğu kimi, manat inzibati yolla, Mərkəzi Bankın qərarları ilə tənzimlənir. Əgər manatın məzənnəsi hər gün eyni qaydada aşağı düşürsə, deməli, bu üzən məzənnə deyil. Bu baxımdan, düşünmürəm ki, Azərbaycan Mərkəzi Bankı FED-in uçot dərəcələrini artırmaq qərarından sonra dərhal manatın kəskin ucuzlaşmasına gedəcək. Görünən odur ki, Azərbaycan hökuməti və Mərkəzi Bankı bu qərara hazırlaşır. Gündəlik olaraq, məzənnəni 0,30-0,31 qəpik azaltmaqla, artıq FED-in qərar verəcəyi günə qədər manatın kifayət qədər zəifləməsini təmin edəcək. Yəqin ki, biz bu yaxınlarda manatın rəsmi məzənnəsinin 1, 65-ə qədər düşəcəyini görəcəyik. Hökumət məzənnəni kəskin dəyişməmək, sosial narazılığa səbəb olmamaq üçün gündəlik olaraq manatın məzənnəsinin azalmasına getməklə buna hazırlaşır. Çox güman ki, FED-in faiz artımı ilə bağlı qərarına qədər manat 1.65 səviyyəsində olacaq".

❑ **Nərgiz LİFTİYEVA**




# İran yenə Azərbaycanı yox, Ermənistanı seçdi

**İran Ermənistan ərazisindən keçməklə Gürcüstana qaz ixracına dair saziş imzalayıb. RİA Novosti xəbər verir ki, bu barədə İranın neft naziri Bijan Zanqane Ermənistanın energetika və təbii sərvətlər naziri Levon Yolyanla görüşün yekunlarına dair açıqlamasında bildirib.**

Beləliklə, İran qazı Ermənistan ərazisindən Gürcüstana nəql olunacaq. Tehran yeni marşrutla Avropaya da qaz ixrac etməyi planlaşdırır.

Qeyd edək ki, İran qazının Gürcüstana Azərbaycan üzərindən nəql ediləcəyi gözlənilirdi.

YENİ MÜSAVAT
N 164 (6485) 29 iyul 2016

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# Avqust döyüşlərinin ikinci ildönümü - sülhün "donu" açılacaqmı?

## Qarabağ ətrafındakı situasiya 2014-cü ilin avqust hadisələrindən sonrakını xatırladır; İrəvandakı olaylar barışın, yoxsa savaşın xeyrinə işləyir? **Rusiyalı ekspert:** "Ermənistan əraziləri Azərbaycana qaytarmalı olacaq..."

**Avqust ayı Qarabağ probleminin həllində nəhayət ki, irəliləyişə nail olmaq üçün əlverişli bir dönəm ola bilər. Məsələ ondadır ki, gələn ay həm Türkiyə və Rusiya, həm də Azərbaycan və Ermənistan prezidentlərinin görüşü planlaşdırılır. Sankt-Peterburqda baş tutacaq Putin-Ərdoğan görüşündə Qarabağ mövzusu da diqqətdə olacaq.**



Əslində sonuncu görüş daha böyük önəm kəsb edir, çünki konfliktin həllinə Ankara-Moskva əməkdaşlığı böyük töhfə verə bilər, nəinki vaxtaşırı ATƏT-in Minsk Qrupu həmsədrlərinin prezidentlərin yalnız görüş xətrinə təşkil elədiyi görüşlər. Ancaq nəzərə alsaq ki, Əliyev-Sərkisyan arasında Paris görüşü Putin-Ərdoğan görüşünün ardınca reallaşacaq, o zaman güman eləmək olar ki, birinci görüşdən sonra münaqişə ətrafına yaranacaq situasiya, yaxud siyasi ab-hava Paris danışıqlarının da nəticələrinə təsir edəcək.

***

Bəs avqust ayında, nəhayət, "köhnə Qarabağ yükü" yerindən tərpədiləcəkmi?

Yada salaq ki, bu ay həm də təmas xəttində 3 günlük müharibənin ikinci ili tamamlanacaq. Əfsus ki, 2014-cü ilin avqustundakı hərbi toqquşmadan nə Ermənistan, nə də vasitəçilər ciddi nəticə çıxardı. Bu da 2016-cı ilin aprelində daha qanlı hadisələrə və hərbi toqquşmaya, eyni zamanda işğalçı Ermənistana atəşkəs dönəmində ilk sərt qulaqburmasının verilməsinə gətirdi.

Lakin 4 günlük aprel müharibəsindən də ciddi dərslər götürülməzsə, heç şübhəsiz, bu dəfə qat-qat böyük hərbi eskalasiya, hətta böyük müharibə labüd ola bilər. Hələ ki vasitəçi dövlətlər bu təhlükəni, status-kvonun indiki kimi qalmasının nələr vəd elədiyini ciddiyə almış kimi görünürlər. Ancaq əsas - əlbəttə ki, nəticədir.

Məsələ də ondadır ki, bir neçə gündən sonra aprel olaylarının 4 ayı tamamlanacaq. Amma Vyanadan başlayan, Sankt-Peterburqda davam etdirilən yeni sülh prosesi də əvvəlkilər tək daha çox imitasiyaya oxşamağa başlayıb, nəinki real nizamlama prosesinə. Bu prosesə Ərdoğan-Putin görüşü sanballı stimul verə bilərdi.

Doğrudur, hazırda Ermənistandakı daxili ictimai-siyasi durum işğalçı tərəfin daha konstruktiv mövqe tutacağına şübhələri artırıb. Amma orada nə olsa da, Serj Sərkisyan istefaya getsə də, getməsə də, hakimiyyətə yeni və daha radikal qüvvə gəlsə də, gəlməsə də, bir şey dəqiqdir ki, Dağlıq Qarabağ konflikti daha bir neçə il dondurulmuş vəziyyətdə qala bilməz. Zatən, münaqişə apreldən sonra dondurulmuş vəziyyətdə də deyil.

Ayrı sözlə, bundan sonra da sülh danışıqlarının imitasiya xarakteri daşıması yolverilməzdir. Çünki növbəti və daha böyük hərbi qarşıdurmanı durdurmaq qat-qat çətin olacaq, bəlkə də mümkün olmayacaq. Bu üzdən əgər təcavüzkar Ermənistanda son baş verənlər əgər sırf Qarabağ məsələsində konstruktiv mövqedən, əraziləri azad etməkdən qaçmağa hesablanmış bir oyun, ssenaridirsə, o zaman böyük müharibədən yayınmaq həqiqətən qeyri-mümkün olacaq.

Yeri gəlmişkən, İrəvanda baş verənlərin bir oyun olduğunu güman edənlər az deyil. Hətta bəzi siyasi müşahidəçilərə görə, Ermənistanda nə doğru-düzgün polis idarəsi, nə gerçək üsyançılar, nə də girovlar var. Onların qənaətincə, İrəvandakı mənzərə reallığı əks etdirmir və Ermənistanda hökumət əleyhinə baş qaldıran etirazlar rəsmi İrəvanın çox güclü bir oyununun tərkib hissəsi, imitasiyadır. Belə fikir də dolaşır ki, İrəvandakı olaylar Rusiyanın əli ilə məhz Sərkisyan tərəfindən təşkil olunub və Qarabağla bağlı prosesin intensivləşməsindən, özəlliklə də dünyanın Ermənistana təzyiq etməsi qorxusundan qaynaqlanır.

Bu yanaşmanın nə dərəcədə həqiqətə yaxın olduğunu tezliklə biləcəyik. Hər halda, bu da faktdır ki, İrəvanda polis binasının silahlılar tərəfindən ələ keçirilməsi zamanı alay komandirinin müavini, polis polkovniki öldürülüb, çoxlu sayda yaralı var, eyni zamanda silahlı qrupun başçılarından biri və onun oğlu ağır güllə yarası alıb. Bu kimi faktlar əlbəttə ki, imitasiya variantını istisna edir. Həm də o səbəbə ki, Sərkisyan özünə qarşı cəmiyyətdəki ovqatı bilir və sərt addımlara əl atılması onun siyasi ömrünü dərhal qısaldardı.

***

**Vəziyyətə Rusiyadan olan ekspert baxışları da maraqlıdır. Məsələn, Rusiyadakı "Valday" Klubunun eksperti, REA-nın Beynəlxalq Təhlükəsizlik Problemləri İnstitutunun aparıcı elmi əməkdaşı, Lomonosov adına Moskva Dövlət Universitetinin (MQU) dünya siyasəti fakültəsinin dosenti Aleksey Fenenko hesab edir ki, Qarabağ məsələsində Moskvanın mövqeyi Azərbaycana daha yaxındır, nəinki Ermənistana.**

"Rusiyanın mövqeyi üç məqamdan ibarətdir: birincisi, biz Azərbaycanın ərazi bütövlüyünü, Dağlıq Qarabağın onun tərkib hissəsi olduğunu rəsmən tanıyırıq. İkincisi, biz problemin hərbi yolla həllinə qarşıyıq. Üçüncüsü isə Rusiyanın və KTMT-nin Ermənistana verdiyi zəmanətlərdən heç biri Qarabağ məsələsində işləmir. Bunu başa düşmək üçün Rusiya XİN-in bəyanatını oxumaq kifayətdir" - ekspert qeyd edib.




**Onun sözlərinə görə, Kremldə Sərkisyandan narazılıq artır:** "Ancaq biz əgər daima Ermənistana təzyiq eləsək, o zaman Ermənistan, sadəcə, partlayacaq və biz daha bir anti-Rusiya dövləti qazanacağıq". Analitik hesab edir ki, aprel ayında təmas xəttində situasiyanın qəfil kəskinləşməsi nizamlamaya dair Madrid prinsiplərini tamamilə basdırıb və Azərbaycan ordusunun gücünü açıq şəkildə nümayiş etdirib.

"Azərbaycan bununla göstərdi ki, müharibənin nəticələri heç də bütün bu illər ərzində Ermənistanda bir çoxlarına göründüyü kimi deyil, müharibə hələ bitməyib. Üstəlik, Azərbaycan sübut elədi ki, döyüş əməliyyatları başlayarsa, real cəbhəni yarıb müharibəni Dağlıq Qarabağın içərilərinə keçirə bilər" - Fenenko vurğulayıb.

**Rusiyalı ekspert hesab edir ki, Moskva Azərbaycandan daha çox Ermənistana təzyiq edir.** "Ermənistan prezidenti Serj Sərkisyan Dağlıq Qarabağ ətrafındakı əraziləri Azərbaycana qaytarmalı olacaq" - təhlilçi qeyd edib.

Qarabağa dair danışıqları detallarının ciddi şəkildə gizlin saxlanmasının səbəblərini şərh edən ekspert "Rusiyada Ermənistandakı qaynar başlardan çox ehtiyat edirlər" deyib. "Rusiya hakimiyyəti öz ölkəsinin ictimaiyyətindən də ehtiyatlanır ki, Kreml daha bir müttəfiqini satmaqda suçlana bilər. Bu üzdən istənilən konkretlik situasiyanı partlada bilər" - politoloq sonda əlavə edib.

***

Göründüyü kimi, həm Dağlıq Qarabağ konflikti və yeni sülh danışıqları, həm də Ermənistandakı durumla bağlı ziddiyyətli yanaşmalar var. Ancaq onların hamısını bir ortaq faktor birləşdirir - Rusiya faktoru. Rusiya istəsə, Qarabağ düyününün açılmasını tezləşdirər və bu zaman ona Ermənistandakı proseslər də ona mane ola bilməz.

## Rus şair patriarx Kirili Sərkisyana görə qınadı

**Rus şairi, publisist Aleksandr Fomenkov Moskva və bütün Rusiyanın patriarxı Kirilə məktub ünvanlayıb (Axar.az). Məktubda ilahi ədalətin pozulmasından, Xocalı qətliamındakı dəhşətlərdən söhbət gedir və patriarx Kiril Serj Sərkisyanla isti münasibətlərinə görə qınanır.**



Məktubda Xocalı soyqırımından söz açan müəllif yazıb: "İnsan deməyə dilim gəlməyən bu canlılar müharibədən qaçan 613 nəfəri yaxalayıb, təkcə türk olduqlarına görə qətlə yetiriblər. Ölənlərin içində 63 uşaq, 106 qadın, 70 ahıl var idi. Bu cinayətin nəticəsində 8 ailənin kökü kəsilib, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirib. 47-si uşaq olmaqla, 487 nəfər yaralanıb, əsasən qadın, uşaq və qocalardan ibarət 1275 nəfər isə girov götürülüb. 150 nəfərdən isə - içində 68 qadın, 26 uşaq olmaqla, bu günədək heç bir məlumat yoxdur.

Zati-müqəddəsləri! İnternetdə təsadüfən sizin Ermənistan prezidenti Serj Sərkisyana ünvanladığınız doğum günü təbriki ilə rastlaşdım. Bundan sonra məqsədyönlü şəbəkədə axtarışa başladım. Demə ki, siz bu "adamla" çoxdan dostluq əlaqələri yaratmısız. Əcəb işdir..."

Qeyd edək ki, Serj Sərkisyan iyulun 30-da anadan olub. Bu münasibətlə Kiril ona doğum günü təbriki ünvanlayıb.

YENİ MÜSAVAT
N 164 (6485) 29 iyul 2016

**Paytaxt marketlərində satılan məhsulların qiymətində nəzərəçarpacaq dərəcədə artım müşahidə edilir. Son günlər manatın tədricən dəyərsizləşməsi, elektrik enerjisinin bahalaşması mağazalara da təsirsiz ötüşməyib. Əhali bahalaşmanın davam edəcəyindən narahatdır.**

# Mağazalarda alıcıların sayı azalıb

## Bazar-dükanda bahalaşma müşahidə olunsa da, ucuzlaşan məhsullar da var; ekspert durumu dəyərləndirir...



Təəssüf doğuran əsas məqam odur ki, qiymət artımı gündəlik tələbat məhsullarındadır. Belə ki, şəkər tozu, qənd, çay, yumurta, yağ, un kimi ərzaq məhsullarının qiymətindəki artım ailələrin büdcəsinə də təsir göstərəcək. Bazar və marketlərdəki qiymətlərlə bağlı son durumu öyrənmək üçün satış mərkəzlərinə üz tutduq.

Paytaxtda fəaliyyət göstərən marketlərdə artıq yeni qiymətlər tətbiq olunur. Məsələn, bir müddət öncə, 954 qəpikdən 1 manat 10 qəpiyə qalxan şəkər tozu, indi 1 manat 20 qəpik olub. Xüsusən insanların yay meyvələrindən qış üçün mürəbbə, kompot tədarükü gördüklərini nəzərə alsaq, bu artım heç də arzuolunan deyil. Qəndin də qiymətində artım var - 1.58 manata satılan kəllə qənd 1.65-ə təklif edilir. Həmçinin çayların qiyməti hiss olunacaq dərəcədə artıb - 1.40-1.50 manata satılan 100 qramlıq çayların qiyməti 1.60 manatdan başlayır. 42 qəpiyə satılan "Azərduz" 50 qəpiyə qalxıb. Bir müddət öncə ucuzlaşaraq 10 qəpiyə düşən fabrik yumurtası isə 13 qəpik olub.

Yağların qiymətində də artım var. Yeni Zellandiya istehsalı olan "Ancor", "West Gold" yağlarının bir kiloqramında 20-50 qəpik arası artım olub. Belə ki, əvvəl 9.50 manata satılan yağlar indi 10.10 manatdır.

Duru yağların qiyməti isə daha çox artıb. Yerli istehsal olan "Möcüzə" qarğıdalı yağının bir litri 3.98 manata qalxıb, öncə 3.58 manat idi. "Final" günəbaxan yağının bir litri 2.65-ə satılır, halbuki, bir müddət öncə 2.45 idi.

Yayda daha çox istifadə olunan sular, sərinləşdirici içkilər də bahalaşıb. Belə ki, 50 qəpiyə satılan yarım litrlik "Fanta", "Sprite" və digər "Coca-Cola" məhsulları 60 qəpik olub, həmin məhsulların 1 litrlik olanları isə 80 qəpikdən 90 qəpiyə qalxıb.

"Cappy" məhsullarında da 10-20 qəpiklik artım var.

25 qəpiyə satılan yarım litrlik sular 30 qəpiyə təklif edilir. 70 qəpiyə satılan 2 litrlik "Bonaqua" suları isə 80 qəpiyə qalxıb. Tomat, makaron məhsullarının, konfet və şirniyyatların qiymətində cüzi artım hiss olunur. Yerli süd məhsullarının qiyməti dəyişməsə də, xaricdən gətirilən ağartı malları bir qədər bahalaşıb.

Ərzaq məhsullarından əlavə, məişətdə istifadə olunan təmizlik vasitələrinin qiymətində də yüksəlmə var. Belə ki, 1.98 manata satılan "Ariel" yuyucu tozu 2.10 manat olub. 1.90 manata olan yarım litrlik "Fairy" qab şampunu 2.45 manata qalxıb. Saç şampunları və duş gel-



lərinin qiymətində də 0.5-1 manat arasında artım var. Həmçinin qəssabxanalarda mal və qoyun ətinin qiyməti artıb. Dana ətinin 1 kiloqramı 7 manat 50 qəpikdən 8 manat 50 qəpiyə qalxıb. Sümüksüz ət 50 qəpik bahalaşaraq, 10.50 manat olub. İçalat isə 5 manatdan 6 manata qalxıb.

Kənd təsərrüfatı bazarında isə mövsümi məhsullarda ucuzluq müşahidə olunur: kartof 40 qəpik, soğan 50, badımcan 20, xiyar 50, pomidor 40 qəpiyədir. Kök və kələm 60 qəpik, göyərtilər 5-10 qəpik, qarğıdalının 7 ədədi 1 manat, bibərin 10 ədədi 1 manatdır. Ümumilikdə, alıcılar qiymətlərdən narazı deyil. Yalnız meyvələrin qiyməti mövsümə uyğun deyil. Ərik, şaftalı, göyəm və digər meyvələr 1.50 manatdan başlayır. Qarpız və yemişin kiloqramı isə 20 qəpiyədir.

**Bazarlardakı bahalaşmanın səbəblərindən danışan iqtisadçı ekspert Qubad İbadoğlu bildirdi ki, kənardan gətirilən idxal mallarının bahalaşmasının başlıca səbəbi manatın günbəgün dəyərdən düşməsi ilə bağlıdır:** "Gündəlik 0.30 qəpiklik devalvasiya idxal mallarının cüzi də olsa bahalaşmasına səbəb olur. Ətin qiymətinin artmasına gəlincə, onun səbəbi ölkəyə idxal olunan iribuynuzlu heyvanların sayının azalması ilə bağlıdır. Mal-qara əsasən Rusiyadan gətirilir və rus rublunun möhkəmlənməsi ilə bağlı olaraq, manat ifadəsində də dəyərin artması bahalaşmanı şərtləndirir. İndiyədək ətin qiymətində bahalaşma müşahidə olunmamışdı. Digərləri ilə müqayisədə ən az bahalaşmaya məruz qalan kənd təsərrüfatı məhsullarından biri də ət idi. Bu artım da son hədd deyil, bundan sonra da bahalaşma davam edəcək. Mal ətinin qiymətinin artması ilə yanaşı, qoyun və quş ətinin də bahalaşmasının şahidi olacağıq".

**Q.İbadoğlunun sözlərinə görə, tələbatın azalması belə bahalaşmanın qarşısını ala bilməyəcək:** "Bir tərəfdən ölkə üzrə alıcılıq qabiliyyəti aşağı düşüb və satış tendensiyası azalıb. Buna baxmayaraq, qiymətlərin artması davam edəcək. Hətta onu da deyərdim ki, qiymət artımı manatın ucuzlaşmasına adekvat deyil, bahalaşma daha çoxdur. Çünki qiymətlərin artması yalnız devalvasiyadan irəli gələn şərtlərlə səciyyələnmir. İndiki halda devalvasiya həm də əhalinin gəlirlərini dəyərsizləşdirir. Bunun müqabilində şirkətlər işçilərinin əmək haqlarına yenidən baxmalı, maaşları azaltmalı və ya ixtisara getməli olurlar. Hər bir ticarət müəssisəsində xərclərin artması son nəticədə qiymətlərin bahalaşmasına təsir göstərir. Bu proses isə supermarketlərin dövriyyəsinin azalmasına səbəb olacaq".

❑ **Nərgiz LİFTİYEVA**
**Fotolar müəllifindir**

# Brent markalı neftin qiyməti 42 dollara düşdü

**Dünya birjalarında neftin qiyməti ucuzlaşmaqda davam edir. Virtualaz.org-un məlumatına görə, ICE London qitələrarası birjasında Brent markalı neftin qiyməti 0,51 dollar azalaraq bir barelə görə 42,96 dollar olub.**

Beləliklə, Brent markalı neftin qiyməti son üç ayda ilk dəfə 43 dollardan aşağı düşüb.

Nyu-Yorkun NYMEX əmtəə birjasında keçirilən elektron ticarət əməliyyatlarının gedişində isə WTI neftinin qiyməti 1 barelə görə 0,19 dollar ucuzlaşaraq 41,73 dollar təşkil edib.

Ekspertlər deyirlər ki, "qara qızıl"ın qiyməti ABŞ-da neft ehtiyatları barədə rəsmi məlumatlar dərc edildikdən sonra düşməyə başlayıb.

Qeyd edək ki, 15-22 iyul arasında (bir həftə ərzində) o 1,6 milyon barel artaraq 521,1 milyon barel təşkil edib.

# Vergilər Nazirliyi Abbas Bağırovun ittihamlarına cavab verdi

## Əməkdar artistin iki ay öncə vergi işçisinin toyunda iştirak etmədiyi üçün Əlavə Dəyər Vergisinə cəlb olunmasına nazirlik nə dedi?




**Bu günlərdə əməkdar artist, müğənni Abbas Bağırov Vergilər Nazirliyinin heç bir əsas olmadan onun üçün 30 min manat borc qeydiyyata aldığı barədə məlumat yaymışdı. Müğənni sosial şəbəkədə status paylaşaraq bildirmişdi ki, o, iki ay öncə vergi işçisinin toyunda iştirak etmədiyi üçün Əlavə Dəyər Vergisinə cəlb olunub. Əməkdar artistin bu açıqlaması mətbuatda, sosial şəbəkələrdə diqqəti cəlb edib, müzakirələrə səbəb olub. Məsələnin aktuallığını nəzərə alaraq Vergilər Nazirliyi ilə əlaqə saxladıq. Nazirlikdən sorğumuza yazılı olaraq cavab bildirilib. Rəsmi cavabı olduğu kimi təqdim edirik:**

"Azərbaycan Respublikası Konstitusiyasının 73-cü maddəsində təsbit olunub ki, "Qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər kəsin borcudur". Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 16.11-ci maddəsində göstərilir ki, "qanunla müəyyən edilmiş vergiləri, habelə bu Məcəllə ilə müəyyən edilmiş qaydada hesablanmış faizləri, tətbiq edilmiş maliyyə sanksiyalarını və digər məcburi ödənişləri ödəmək vergi ödəyicisinin vəzifəsidir". Məcəllənin 24.0.1.-ci maddəsində qeyd olunub ki, "vergi orqanları vergilərin düzgün hesablanması-


Abbas Bağırov

na, tam və vaxtında ödənilməsinə nəzarət etməyə borcludur". Vergi Məcəlləsinin 3.6-cı maddəsinə əsasən "Vergilər siyasi, ideoloji, etnik, konfessional və vergi ödəyiciləri arasında mövcud olan digər xüsusiyyətlər əsas götürülməklə müəyyən edilə bilməz və diskriminasiya xarakteri daşıya bilməz". Göründüyü kimi, mövcud qanunvericiliyə əsasən, kimliyindən asılı olmayaraq, hər kəs qanunla müəyyən olunmuş vergiləri dövlət büdcəsinə ödəməli, vergi orqanları isə buna nəzarət etməlidirlər. Vergi orqanlarında Avtomatlaşdırılmış Vergi Informasiya Sistemi (AVİS) mövcuddur və hər bir vergi ödəyicisi vergi uçotuna alındığı andan etibarən onun bu sistemdəki şəxsi hesab vərəqəsində dövlət büdcəsinə ödədiyi vergilər, vergidən yayınmaqla bağlı ona tətbiq edilmiş sanksiyalar, ümumiyyətlə, vergilərlə bağlı bütün məsələlər tam dəqiqliyi ilə öz əksini tapır".

Nazirlikdən bildirilib ki, şou-biznes nümayəndələri, müğənnilər, müxtəlif bəhanələrlə vergidən yayınmağa cəhd göstərənlərin nisbətən çox olduğu bu sahədə fəaliyyət göstərən vergi ödəyiciləri ilə uzun müddətdir ki, müxtəlif üsullarla, o cümlədən kütləvi informasiya vasitələri ilə geniş izahat və maarifləndirmə işləri aparılır və müəyyən müsbət nəticələr də əldə olunub. Həmçinin qeyd olunub ki, şou-biznes nümayəndələri də daxil olmaqla, hər bir vergi ödəyicisi hesablanmış borclar və tətbiq olunmuş maliyyə sanksiyaları ilə bağlı onları maraqlandıran suallarla vergi uçotunda olduqları vergi orqanına müraciət edə və orada bütün suallarına cavab tapa bilər. Nazirliyin açıqlamasında o da vurğulanıb ki, vergi öhdəliklərinə əməl etmək hər kəsin konstitusiya ilə müəyyən olunmuş borcudur və dövlətə olan borclarını ödəməkdən yayınanlara qarşı qanunvericilikdə nəzərdə tutulmuş bütün tədbirlər görüləcək.

Xatırladaq ki, ötən ay nazirlik vergi borcu olan şou-biznes nümayəndələrinin siyahısını rəsmi saytında açıqlamışdı. Xalq artisti Brilliant Dadaşova, Gülyanaq Məmmədova, əməkdar artist Elza Seyidcahan, Mətanət İskəndərli və digər 50 tanınmış müğənninin adının yer aldığı siyahıda əməkdar artist Abbas Bağırov da var idi. Bununla bağlı qafqazinfo.az saytına açıqlama verən müğənni adının səhvən siyahıya salındığını iddia etmişdi.

❑ **Xalidə GƏRAY**

YENİ MÜSAVAT
N 164 (6485) 29 iyul 2016

# Azərbaycan astroloqları NASA-ya lağ etdilər - səbəb



**NASA növbəti dəfə reallıqdan uzaq olan bir iddia ortaya atıb. 1994-cü ildə “Hubble” kosmik teleskopunun çəkdiyi kosmosda açıq-aşkar üzən süni, nəhəng obyekti NASA-nın əməkdaşları “Allahın iqamətgahı” adlandırıb. Obyekti izləyən alimlər müəyyən ediblər ki, o, qalaktika ilə birlikdə Yerin ətrafında hərəkət edir. Bu, böyük partlayış nəzəriyyəsinə tamamilə uyğun gəlir.**

Partlayış nəzəriyyəsinə əsasən vaxtilə kainatda partlayış olub və həmin vaxtdan qalaktika müxtəlif istiqamətlərə uçub. Məsələ ilə bağlı Alber Qor və keçmiş prezident Bill Klinton müzakirə aparıb qərara gəliblər ki, bəşəriyyətin fikrini bu məlumatlarla qarışdırmaq lazım deyil. Onlar “Allahın iqamətgahı” ilə bağlı bütün məlumatların dərc olunmasına qadağa qoyub.

ABŞ rəhbərliyi bu hadisəni gizli saxlamaq qərarı qəbul etsə də, məlumatlar üzə çıxıb.

Maraqlıdır ki, NASA Amerikanın ən böyük və nüfuzlu kosmik agentliyidir. Onun kosmosdan çəkdiyi şəkillər yetərlidir ki, bu təşkilat dünyada öz nüfuzunu qoruyub saxlasın. Ancaq son illərdə NASA-nın yaydığı məlumatların qeyri ciddiliyi və inandırıcı olmaması insanlarda NASA-da çalışan alimlərin savad və bacarığına şübhə yaradır.



**Firudin Qurbansoy:** “Bu cür məlumatları oxuyandan sonra insan NASA-da alim olmadığını düşünür”



**Səbuhi Rəhimli:** ““Allahın iqamətgahı” haqqında deyilənlər cəfəngiyyatdır”

**Astroloq Firudin Qurbansoy NASA-nın yaydığı məlumatlara baxanda orada oturanların alim olub-olmamasının insanda şübhə yaratdığını dedi:** “NASA çox ciddi bir elmi təşkilatdır. Eyni zamanda onun siyasi, iqtisadi funksiyaları var. Bir sözlə, bu təşkilat hər zaman sayılıb-seçilən, diqqət mərkəzində olan bir qurum olub. Onun adından bu cür mənasız, elmdən kənar məlumatlar mətbuata hərdən sızır. Əslində onlar bu məlumatlara etiraz etməlidirlər. Etiraz etmirlərsə, deməli, bu məqsədyönlüdür. Amma bu məqsədin arxasında nə gizlənir - onu illər göstərəcək. Bir vaxtlar da yazırdılar ki, böyük sürətlə turşu seli axıb gəlir və bütün qalaktikanı yeyir. Ayıbdı, məktəbli də bilir ki, turşu olması üçün maye olmalıdır. Maye kosmosda nə gəzir? Yəni NASA-nın adından elə şeylər yazırlar ki, bunlar normal məntiqə uyğun deyil. Bu cür məlumatları oxuyandan sonra insan NASA-da alim olmadığını düşünür. Bizim məktəblilər onlardan çox bilir. Düzdür, Allahın kürsüsü var. Quranda Fəqərə surəsində xüsusi ayə var ki, Allahın səmada kürsüsü var. Amma Allahın evi məsələsi ilə bağlı məlumat isə vallah ayıbdır”.

**Digər astroloq Səbuhi Rəhimli isə “Allahın iqamətgahı” haqqında deyilən sonuncu cəfəngiyyatın gülməli olduğu qədər də ağlamalı olduğunu dedi:** “Məsələyə bir az böyük aspektdən yanaşmaq istərdim. Bütün deyilənlər bu günün işi deyil. Zaman-zaman dünyanın siyasət dəllalları insanları xof və qorxuda saxlamaq üçün belə addımlar atıblar. Nostradamus, Vanqa, Edqar Keys, Parasels, Rano Nero kimi öncəgörənlərin adından istifadə edib yalançı proqnozlar veriblər. Bunun əsas qayəsi insanlar üzərində təsir imkanlarını artırmaq olub. Halbuki bir araşdırıcı kimi o öncə görənlərin heç birində deyilənlər barədə fikir görməmişəm. Amma insanlar maarifləndikcə bu yalanlara inamını azaltdığı üçün daha müasir metodlardan yararlanırlar - məsələn, NASA kimi. Belə hallar adətən böyük məxfi planların həyata keçdiyi zamanlarda, kosmosun hərbiləşdirilməsinin vüsət tapdığı zamanlarda baş verir. 21 dekabr "dünyanın sonu" hadisələri yadımızdadır. Hətta bu cəfəng ideyanın beyinlərə sirayət etməsi üçün 1 milyardlıq film də çəkmişdilər. Bu barədə çoxlu sayda kitablar yazılmışdı. Qəribəsi də odur ki, həmin dönəmlərdə dünyanın din xadimləri də, astrofiziklər də susdu. Bu da təbii olaraq sadə insanların şübhəsini daha da artırdı. 2011-ci ilin sonunda “2012 - Dünyanın sonumu?” adlı kitab yazmışdım. Qəribəsi odur ki, 2 manatlıq o kitabı alıb oxumaqdansa, ciddi məbləğdə pul xərcləyib şam, konserv, qara şüşələr alanlar oldu. Halbuki o kitabda hər şey qeyd olunmuşdu, dünyanın sonunun hələ gəlmədiyi elmi və dini baxımdan izah edilirdi. Gülməli də olsa, dünya banklarından kredit alma əmsalından yaranmış kəsirlər də məhz “dünyanın sonu” şayiəsi ilə tamamilə aradan qaldırılmışdı. Nəticədə nə oldu? Heç bir dağıntı, tələfat və ya qaranlıq olmadı.

Ötən ilin noyabrında da NASA bəyan etdi ki, guya noyabrda 8 gün qaranlıq olacaq. Üstəlik, inandırmaq üçün bunu tanınmış alimlərin açıqlaması kimi ortalığa atırlar. Astronomiyadan azacıq anlayışı olan da bilir ki, ən böyük planet belə Yerin ən yaxınlığından keçsə, 8-12 saat əlavə qaranlıq hökm sürər. Belə hadisə isə min illərdir ki, baş verməyib. “Allahın iqamətgahı” haqqında deyilən sonuncu cəfəngiyyat isə gülməli olduğu qədər də ağlamalıdır. Bütün dinlərdə Allahın maddi olmadığı, hətta əksər mələklərin Onu görə bilmədiyi bildirilir. Allahın dərgahı, sifəti, ölçüsü haqqında isə heç bir yaradılan bilə bilməz. Müqəddəs Kitabımızda Allahın məkansız, zamansız olduğu bildirilir. Belə olan təqdirdə Onu görmək, hətta şəklini çəkmək absurddur. Bütün var olanları yaradan, kainatın nizamını quran, minlərlə aləmi səhvsiz əmələ gətirən bir Qüvvənin balaca bir qalaktikanın bir küncündə toz dənəsi boyda bir kosmik gəmi vasitəsilə görünməsi heç cizgi filmlərində də inandırıcı alınmaz".

**S.Rəhimli bütün bunların xaos yaranmasına xidmət etdiyini dedi:** “Dinlərdən bildiyimiz kimi, Allah bəzi peyğəmbərlərə alov vasitəsilə, səslə, işıqla hiss etdirilib. Lakin cismani formada heç bir peyğəmbər Onu görə bilməyib. Həzrət Peyğəmbərimizdən bir hədisdə deyilir ki, günahsız insanlar, əməli-salehlər Cənnətdə Allahın camalını görə biləcəklər. Amma nə bura, nə kosmik fəza Cənnət, şəkli çəkənlər isə əməli-salehlər deyil. Düşünürəm ki, bütün bunlar həm də materialist dünyagörüşünün güclənməsinə, insanların cahilləşməsinə, dini təməllərə şübhələri artırmağa, sonda böyük XAOS-un yaranmasına xidmət edir”.

❑ **Günel MANAFLI**

# “Hamısı Amerikanın oyunudur”



**Samir SARI**

**Bu sözü, Allah qoymasa, 4-5 il təşər-təşər ali məktəb oxuyan adam da deyir, ömründə bir dəfə lövhə qarşısına çıxıb halal “üç” almayan da, ömrünün 25 ilini qəzet redaksiyalarında jurnalistlik edənlər də, həyatında bir dəfə qəzet-kitab arası açmayanlar da. Amma hər biri əminliklə söyləyir: “Hamısı Amerikanın oyunlarıdır”. Qısa və lakonik. Eyni zamanda nə qədər dərin, təfərrüatlı bir analiz.**

Onu da bəri başdan deyim ki, “Amerika” deyəndə bizim camaat Amerika qitəsindəki 37 dövlətdən *(bu sıraya Surinam, Belize, Barbados kimi kiçik ölkələrlə yanaşı, ABŞ, Braziliya, Meksika, Kanada kimi nəhəng ölkələr daxildir)* biri olan ABŞ-ı nəzərdə tuturlar - ya adında “Amerika” sözü olduğuna görə, ya da qüdrətinə, gücünə görə.

“Amerikanın oyunları”ndan bəhs edən adam görəndə çoxları soruşmağa utanır ki, görəsən, bu qədər əminliklə söylədikləri iddianı hansı etibarlı mənbəyə istinadla deyirlər, axı əcnəbi dil bilmirlər, deyəsən ki, dünən gecə “Qardian”ın, ya da “Arqumentı i Faktı”nın saytında maraqlı bir analiz oxuyublar, ordan bilirlər.

Yox, nə oxuyarlar, nə radio-filan dinləyərlər, amma bu işləri də dəqiq bilirlər. “Hamısı Amerikanın oyunlarıdır”.

Olur ki, bir şənlikdə, ya hüzr mərasimində, yeddi kişi oturub dünyadakı ən son olayı müzakirə edirlər *(bu, qaydadır, məclislərdə söhbət qlobal miqyasda olmalıdır)*. Tanıyanlar səni qəzetçi, oxumuş adam sayır, “bu işləri axırı necə olacaq” deyə soruşurlar, sən də bu işin içində olan adam kimi, oxuduğundan, bildiyindən ərz etmək istəyərkən, qıraqdan biri, tutaq ki, məhəllənin makleri əlindəki maşın açarını mobil telefonunun üstünə qoyub müdrik-müdrik deyir: “Əşi, hamısı Amerikanın oyunudur”. Ta heç zad. Adam dedi. Bundan sonra şərh verməyin yeri yoxdur.

Əgər o sual səslənəndə sən cəld tərpənib, qabağa düşüb, “hamısı Amerikanın oyunudur” desəydin, müdrik makler maşınının açarını telefonunun üstündən götürüb deyəcəkdi ki, elə deyil axı, müəllim, işin içində başqa məsələlər də var. “Başqa məsələlər”, yəni daha dərin mətləblər. Bunu başqaları bilməz, hər nə işdirsə, bunları yalnız o bilir. Məclislər bu cür biləndar adamlarla dolub-daşır. Hər yerdə var belələri.

Tanımayan deyər ki, onlar MKİ-nin, “Mossad”ın, türkün sözü, gizli ajanlarıdır, yoxsa bu cür dərin və qəliz-qəliz mətləbləri hardan bilə bilərlər. Ya da keçmiş zamanlar olsaydı, inanardıq ki, belə adamlara göydən vəhy gəlir. Əks təqdirdə səhərdən axşama qədər işlətdiyi dükandan çıxmayan adam ABŞ Dövlət Departamentinin nəzdindəki araşdırma institutlarında, analitik mərkəzlərində tərtib olunan gizli planlardan, məkrli oyunlardan necə xəbər tuta bilər?

İndi bəziləri deyəcək ki, bu son vaxtlar belə oldu, sovet vaxtında belə deyildi. Xeyr. Camaatın başı elə sovet dövründə pozuldu. Zorinlər, bovinlər mərkəzi televiziyada o qədər analitik-analitik danışaraq hər şeyi Amerikanın üstünə yıxdılar ki, camaat da Amerikaşünas olub getdi. Allah tərəfi, o vaxtlar dünyanın harasında bir pəstəha çıxırdısa, pərxaşlıq düşürdüsə, işin içindən Amerika və SSRİ çıxırdı. İntəhası, sovet analitikləri Kremli “sülh göyərçini”, ABŞ-ı isə isə “çöl quzğunu” kimi təqdim edirdilər. Amerikalı analitiklər isə əksinə, ABŞ-ı mələk, SSRİ-ni iblis elan edirdi.

Söz yox, ABŞ fas-farağat deyil, oyun quran, oyun pozan, itoynadan, gücclülərə oynaşan, ortabablarla qumar oynayan, zəifləri barmağında oynadan dövlətdir. Ölkəmizin analitikləri əmindir ki, Ukraynanı Rusiyaya qarşı ABŞ qaldırıb, Gürcüstana dil verən odur, Suriyanı ABŞ parçalayır, İraqı o günə ABŞ qoyub, Əfqanıstanı ABŞ məhv edib, Pakistanı ABŞ qarışdırır, nəhayət, Türkiyədəki hərbi çevrilişin dalında ABŞ durur və sair və ilaxır.

Ancaq analitiklərimiz bəzən ifrata varırlar, hesab edirlər ki, bu dövlətin öz daxilində olan hadisələri *(məsələn, 11 sentyabr teraktını, başqa-başqa ştatlarda olan güllləbaranları)* də özü törədir, “hamısı öz oyunudur”.

Bu cür analitiklərin fikrincə, 15 iyulda Türkiyədə baş verən hərbi çevriliş cəhdi də Ərdoğanın öz oyunudur, teatrdır, tamaşadır.

Ortada 300-ə qədər ölən, 2 minə yaxın yaralanan, 10 mindən artıq tutulan, yüz min civarında işdən çıxarılan var, belə teatr olarmı? Teatr görməmişikmi? Bilirik ki, səhnədə güllələnən adamlar pərdə enən kimi durub gedirlər, lap axırda isə səhnəyə qayıdıb tamaşaçılara baş əyirlər.

YENİ MÜSAVAT
N 164 (6485) 29 iyul 2016




**Cümə söhbətləri**

# Ən uzaqgörən adam

**Bismilləhir-Rahmənir-Rahim! Mübarək dinimiz təqva və zahidlik kimi mövzulara böyük yer ayırmışdır. Bu, sözügedən məfhumların insan həyatında gerçək tətbiqinin tapılması üçün son dərəcə böyük əhəmiyyət kəsb etməsindən irəli gəlir. Bunu nəzərə alaraq, inanc insanı təqvalılıq durumunun həqiqi mahiyyətini özü üçün xüsusi olaraq aydınlaşdırmalıdır.**



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

## Həyat üçün müəyyənedici amil

Adətən əxlaqi mövzular haqqında danışanda, təqva haqqında, zahidlik haqqında danışanda əsas problemlərdən biri odur ki, bu mətləblər haqqıda ümumi danışılır, nəzəri danışılır. Halbuki yaşadığımız həyatın hər anı, hər dəqiqəsi, həyatın hər bir səhnəsi bir dərsdir, nəticə çıxartmaq üçün olan bir məsələdir. Gündəlik həyatda kifayət qədər ziddiyyətli hallara rast gəlinir. İnsan bir iş görür - burada öz istədiyini, ətrafının istədiyini rəhbər tuta bilər. Deyə bilər ki, camaat nə deyər. Deyə bilər ki, mən niyə camatdan fərqlənməliyəm? Deyə bilər ki, mənə məgər hamıdan çox lazımdır?!

Amma həmin insan edə də bilər ki, Allahın istədiyini rəhbər tutsun. Baxmasın ki, nəfsi nə istəyir. Baxmasın ətalətli toplum nə istəyir. Deməsin ki, birdən məni qınayarlar ki, niyə hamı kimi olmursan. Deməsin ki, camaat gülər mənə ki, imkanı, fürsəti ola-ola niyə rüşvət almır, haqq basmır, xalqın malını mənimsəmir. Desin ki, təki Allahım məndən razı qalsın. Desin ki, məni hər şeydən çox, Rəbbimin razılığı maraqlandırır. Desin ki, mən filan işi ona görə o cür etdim ki, Yaradanım belə istəyir. Mən filan şəraitdə yalan danışmadım, mənəviyyatsızlıq etmədim - çünki, bu, Allahımın bəyənmədiyi işdir.

Bu, bir mövqe. Digər bir mövqe də var. Kiminsə Allahın bəyəndiyi iş görməsinə digərinin reaksiyası. Bu reaksiya bir neçə cür ola bilər: rəğbət, dəstək, laqeydlik, görməməzliyə vurma, qəlbdə və ya əməldə təzahür edilən qıcıq və s. Bunların hər birinin öz qnoseoloji kökü var. Amma bu reaksiyalar ümumi bir meyar üzərindədir - reaksiya sahibinin dəyərlər sistemi. Hansı koordinat sisteminə əsasən bu insan öz baxışlarını tənzimləyir: öz istək və maraqlarınımı hər şeydən üstün tutur, yoxsa ali dəyərləri həyatda rəhbər tutaraq irəli gedir? Bu, müəyyənedici amildir. İnsanın həyatın hər bir səhnəsində əməl motivasiyasını müəyyən edir.

## Mövqesiz çoxluğun təzyiqi

Həmin bizim halda da sözügedən reaksiyalar insanın dünyagörüşünün məhsuludur. Əlbəttə ki, hər bir halda olduğu kimi, burada da ən çoxsaylı qrup - mövqe qoymağa tələsməyən, haqq-nahaqlığından asılı olmadan, nöqteyi-nəzərlərdən hansının üstün gəlməsini gözləyərək, lazım gələndə onu dəstəkləməyi üstün tutan insanlardır.

Həyatımız belə nümunələrlə olduqca boldur. Baxırsan, birinin haqqı basılır, susqun çoxluq isə özünü görməməzliyə vurur. Məzlum imdad edir, çoxluq isə "eşitmir". Nəticədə toplumda "sənə hamıdan çox lazımdırmı? Sənə aid olmayan işlərə qarışma" məfkurəsi inkişaf edir.

## İbrətli nümunə

Toxunacağımız nümunədə də eynilə belə vəziyyət cərəyan edir. Bir nəfər həyatının hansısa məqamında qərara gəlir ki, ətrafının ona sırıdığı klişelər əsasında deyil, iblisvari stereotiplər əsasında deyil, vicdanının və əqidəsinin diktə etdiyi sxem əsasında müəyyən bir addım atsın. Biriləri belə keyfiyyətli addımın atılması iqtidarında olmadığından, digərləri onun dünyagörüşünə müxaliflik ucbatından, üçüncülər isə mövqeliliyin özündən qıcıqlanaraq həmin insana təzyiq edirlər. Realdırmı belə çeşidli və hərtərəfli təzyiq və təpkilərə davam gətirmək?! Yalnız bir halda realdır - insan öz əqidəsinə sadiq qaldıqda və bu əqidəyə dayandıqda. Ətrafı ona deyir ki, israf et, yalan danış, əxlaqsızlıq et, milli, dini identikliyini itir. Amma bu insan deyir ki, mən belə yaşamaq istəmirəm. Deyir mənə bir dəfə verilən ömrü puç etmək istəmirəm.

Digər kateqoriyalar bir yana, əsas mövzu iki tipin üzərindədir: əqidəsinə görə addım atan və bu insanın atdığı addımın məhz əqidəliliyindən qıcıqlanan. Bunların etdiklərini ümumiləşdirsək, əsas fərqləndirici əlamət odur ki, biri istəyir öz hisslərini, öz duyğularını Uca Yaradanın bəyəndiyinə uyğun ödəsin. Digəri müvəqqəti nəsnələri rəhbər tutub - öz xeyir və maraqları onun üçün həyati mayakdır. Və bundan fərqli bir yanaşma gördükdə, natamamlıq kompleksləri tüğyan edir və mövqeli insana qarşı öz qiciğini təzahür edir. Hətta bir müddətlik belə hazır deyil bu şəxs haramı tərk etsin, Allah deyən kimi yaşasın, vicdanın səsinə qulaq assın. Belə durumda olaraq, necə həzm edə bilər fərqli vəzəyyətdə olanı?!

Mahiyyətcə, bu günü, bu saatı ilə yaşayan və öz aqibəti, əbədiyyət perspektivi barəsində qayğılanan 2 kateqoriya insandan söhbət gedir. Birincisi, sabahkı günü barədə düşünmək istəmir, onun həyati motivasiyası - primitiv impulslardır. İkincisi ilə həyatın mənasını dərk etməyə cəhd edir, bu mənanı tədricən əməllərinə köçürür.

## Zahidlik konsepsiyasi

Mübarək dinimizin məntiqində hədəf olaraq dünyanı deyil, aqibəti müəyyənləşdirən yanaşma "zahidlik" konsepsiyası ilə ehtiva edilmişdir. Bəzilərinin düşündüyünə rəğmən, zahidlik tərki-dünyalıq deyil. Zahidlik odur ki, insan dünyanı bir vasitəlıqla yanaşsaq, zahidlik məfhumunun özündə uzaqgörənliklə dünyanın mahiyyətinə varmalı olmaqlığın ehtiva olunduğunu görürük. Həqiqi mənada zahid odur ki, dünyanın davamlı olmadığını dərk edir. Zahid düşünməlidir ki, bu dünyadakı yaşayışının sonra ona faydasının olması üçün nələri etməlidir.

Zahid bilir ki, bir müddət buradadır. Və bilir ki, burada, bu dünyada olmasının fəlsəfəsi - axirət üçün xoş aqibət hazırlamaqdır. Amma buradan gedəcəkdir. Gedən olduğu üçün dünyaya vasitə kimi baxır. Və gedəcəyi yer üçün tədarük görür. Gedəcəyi yerə hazırlıq görür. Belə edəndə olur zahid. Beləliklə, zahid odur ki, dünyadan elə bəhrələnir ki, onun əsas məqsədləri üçün vasitə rolunu oynayır. Niyə uzaqgörəndir? Çünki yəqinən bilir ki, bu dünya bir gün qurtaracaq. Maddiyyatdan hər nə əldə edibsə, əlindən çıxacaq. Uzaqgörən insan bilirsə bunlar əldən gedəcək, onu niyə son hədəf kimi görsün ki?!

## Əvvəl və axır

Bu mənada ibrətamiz bir nəsihət var. İmam Musa Kazım (ə) bir qəbrin baş tərəfində dayanıb, buyurdu: **"Bir şeyin ki, axırı budur, elə əvvəldən ona qəlb bağlamamaq yaxşıdır. Bir şeyin ki, əvvəli budur, onun aqibətindən çəkinmək yaxşıdır".**

Yəni hər bir insanın axır mənzili qəbir evidir. Əgər belədirsə, elə əvvəldən ona qəlb bağlamamaq daha məntiqli deyilmi? Bu dünyanın axırı insanın məzara qoyulması isə sonuclanırsa, nə mənası var burada əbədi qalınırmış kimi fikrini-zikrini buraya yönəltməyin? Buradan o yana heç bir maddi dəyər aparılmayacaqsa, nə mənası var bunların əsiri olmağın?

Eyni zamanda buradan o yana bir yeni həyat başlayır ki, qəbir evi onun başlanğıcıdır. Dünyada yığdığın maddiyyatbilsin və onu son hədəf, nəhayi kamal kimi qəbul etməsin. Bu baxış bucağını izah edən Əmirəl-Möminin Həzrət Əli (ə) məntiqi, aşağıdakı məzmunda hədislə insanın rəhbər tutmalı olduğu həyati yanaşmanı təqdim edir: **"Sizin ən uzaqgörəniniz - ən zahidinizdir".**

Əgər hər bir insan bir qədər uzağa baxsa, görər ki, dünya və onunla bağlı olanlar onun əlindən çıxacaq. Tarix belə misalları saysız-hesabsız olaraq təqdim edir. Fironlardan tutmuş, bugünkü sərvət və mənsəb sahiblərinədək heç kəs özüylə bir şey apara bilməyib. Ona görə də düşünən insan gərək dünyaya son hədəf kimi deyil, son hədəfə çatmaq üçün vasitələrdən biri kimi baxsın.

Bu məsələyə şüur və agahdan fərqli olaraq, bundan o yana ancaq mənəvi dəyərlər kara gəlir. Və mənəvi baxımdan lazımi azuqə yığılmayıbsa, aqibət böyük sual altına düşür. Belə isə, məhz bu azuqənin toplanması barədə düşünmək vəzifəsi gəlmirmi insanın üzərinə?

Bu səfərə gedəndə insan özüylə yalnızca müəyyən şeylər apara bilər. Belə isə, nə səbəbə lazımlıları kənara qoyub, lazımsızların ardınca gedilməli? İnsan özüylə yalnızca əməl apara bilirsə, həmin bu əməlin keyfiyyətliliyi barədə qayğılanmamalıdırmı?

O səfər ki, əvvəli bu cür başlayır, onun gedişatından, özüylə gətirəcəyi mənfiliklərdən çəkinmək lazımdır. Hazırlıqsız vəziyyətdə olmaqdan qorxmaq lazımdır.

Buradan heç nə qalmır insana. Bu dünyadan heç bir maddiyyatı o dünyaya keçirə bilmir insan. Ona lazım olanlar - başqa mövzulardır, dünya ilə bağlı məsələlər deyil. Bəs elə isə, insan bu həqiqətləri nəzərə alaraq, bundan irəli gələn məsələləri həll etməlidir.

Buradan qayıtsaq Əmirəl-mömininin (ə) "ən uzaqgörəniniz - ən zahidinizdir" mübarək kəlamına, vəziyyət bir qədər də aydınlaşar. Kimi uzaqgörən adlandırmaq olar? Gələcək perspektivini nəzərə alıb, işlərini bu perspektivdən irəli gələn nəticələrə uyğun quran insanı. Mənfi aqibəti qabaqlaya bilən, müsbət nəticələri özü üçün təmin edə bilən şəxsi.

Uzaqgörənlik insanı ayıltmalıdır. İnsan rəftarlarını elə etməlidir ki, onun vəziyyətinə yaxşı təsirlər buraxsın. İnsan həyatında hər bir şeyə bu prizmadan baxmalıdır. Nəyin hədəf, nəyinsə vasitə olmasını gərək özü üçün müəyyənləşdirsin.

## Ölümü xatırlamaq nə deməkdir?

İmam Muhəmməd Baqir (ə) buyurub: **"Ölümü çox xatırla. Çünki ölümü çox xatırlayan elə bir insan yoxdur ki, dünyaya etinasız olmasın".**

Təbii ki, buradan qətiyyən o məna irəli gəlmir ki, insan bədniyyət bir durumda olub, işi-gücü ölümdən danışmaq olmalıdır. Tamamilə əksinə. İnsan həyata çox nikbin baxmalı, gələcəyə ümid bəsləməli, həyatını nikbin yük üzərində qərarlaşdırmalıdır. Amma, gedəcəyi mənzili daim nəzərdə saxlamalıdır. İnsan fikrində tutmalıdır ki, bir gün buradan gedəcəkdir. Zira, ölümü xatırlayarkən, gedəcəyi yer barədə fikirləşir və bu düşüncələr də onun prioritetlərini müəyyən edir. Nəyin birinci dərəcəli, nəyin vasitə olmasını təyin edir. Nəticə etibarilə, insanın aqibəti müəyyən edilir bu xatırlamaqlarla.

Ölümü son kimi qəbul etmək olmaz. Bu, tamamilə səhv yanaşmadır. Necə ana bətnində olan uşaq bir gün bu dünyaya göz açır, eləcə də ölümdən sonra yeni həyat başlayır. Amma ana bətnində olan uşaq əməlin cavabdehlik daşımır. Onun məsələlərə təsiri yoxdur. Bu dünya isə imtahan dünyasıdır. İnsan hər bir əməlilə öz aqibətinə təsir edir. Qədəm qoyacağı yeni həyat - sorğu-sual və əcr, əvəz aləmidir. Hər düşünən insan bu anlama uyğun hazırlıqlarını görür.

Ana bətni və dünya həyatı ilə analogiyanı davam etdirsək, bir əlamətdar nöqtəni də qeyd etməliyik. Necə uşağın ana bətnində olmaq müddəti qətidir, ümumi halda bundan çox qalması mümkün deyil, eləcə də insan bu dünya həyatında müəyyən müddət qalır. Nəticə etibarilə, ana bətnində qalmaq bu dünyanın müqəddiməsi olduğu kimi, bu dünya həyatı da axirətin müqəddiməsidir.

Qəribə olardı ki, kimsə öz hədəfini ana bətnində qalmağa yönəldəydi. Kiminsə amalı uşağı ana bətnində saxlamaq ola bilməz axı! Hamı çalışır ki, vaxtı-vədəsi yetişəndə uşağın salamat dünyaya gəlməsini təmin etsin. Eləcə də ölümün fəlsəfəsi odur ki, insan bu dünya ilə dürüst durumda vidalaşsın.

## Təqvalıların xasiyyəti

Ölümü xatırlamaq odur ki, insan bir gün bu dünyadan getməsini unutmasın. Buranın müvəqqəti mənzil olmasını nəzərdə saxlasın. Bu müvəqqətilik anlamından irəli gələn davranış konsepsiyasını seçsin. Əbədi həyata - axirət dünyasına keçid etməyi düşünsün. Yeni və əbədi həyata keçmək baxımından insan diqqət etməlidir ölümü xatırlama mövzusuna.

Əgər insan bilsə, həqiqətən fərqinə varsa ki, burada qalası deyil, buraya bağlayan amillərə yenidən nəzər salar.

Həzrət Əli (ə) buyurub: **"Zahidlik - təqvalıların xasiyyəti və daim tövbə edənlərin xislətidir".**

Bir kəs ki, təqvalıdır, onun işi odur ki, hər bir şeyə İlahi rizayət, razılıq prizmasından baxsın. Zahidlik budur - Allahın rizası olan işi özü üçün həyati prioritet bilmək.

İnsanın bütün xətaları bu dünyanı həyat bilməsindəndir. Bu dünyanın vasitə olması anlamı gücləndikcə isə, insanın tövbə haləti güclənir.

Daim tövbə etmək məsələsinə gəldikdə isə burada hər növbəti əməlin öncəkindən keyfiyyətli olması, hər yeni günün dünənkindən yaxşı olması məqamı da var.

**Beləliklə, həqiqi uzaqgörənlik odur ki, insan o şeyləri hazırlasın ki, əbədi həyatda onun karına gələcər. Uca Allah hər birimizə yaxşını pisdən seçmək qabiliyyətini versin, inşəallah.**

**Allah Təala cəmi insanları həqiqətən uzaqgörənlərdən qərar versin! Amin!**

YENİ MÜSAVAT
N 164 (6485) 29 iyul 2016

# Bütün taksilərdə eyni qiymət olacaq



**Bakıda taksi xidməti sistemində vahid qiymətlər tətbiq ediləcək. Bu barədə fins.az-a məlumat verən Bakı Nəqliyyat Agentliyinin mətbuat katibi Nuridə Allahyarova bildirib ki, qiymətləri Tarif Şurası müəyyən edəcək: «İndi qiymətləri fərdi taksi sürücüləri və şirkətlər özləri müəyyən edir. Lakin yeni sistem işə düşəndən sonra vahid tarif tətbiq ediləcək. Taksi şirkətlərinə isə müəyyən sərbəstlik veriləcək».**

Sistem işə düşəndən haqqı hər kilometrə görə hesonra taksilərdə xidmət sablanacaq. Bunun üçün maşınlarda taksometrlər quraşdırılacaq.

N.Allahyarova deyir ki, yeni qurğu vasitəsilə sürücülərin qeydiyyatı və vergiyə cəlb olunması asanlaşacaq.

Taksi xidməti ilə bağlı yeniliklər "Nəqliyyatın inkişaf konsepsiyası"nda nəzərdə tutulub. Sənədə əsasən, taksi xidməti göstərən sürücülərə yeni fərqlənmə nişanları veriləcək. Nişanı "ASAN Xidmət" mərkəzlərindən alacaqlar. İndi fərqlənmə nişanlarının qiyməti də dəyişə bilər. Qeyd edək ki, hazırda həmin nişanların qiyməti 18 manatdır.

N.Allahyarovanın sözlərinə görə, indiyədək 16 min fərdi taksi sürücüsü və 3 özəl şirkət qeydiyyatdan keçib.

Qeyd edək ki, hazırda dayanacaqlarla bağlı müəyyən problemlər var. Belə ki, bu dayanacaqlardan adətən taksi şirkətlərinin avtomobilləri istifadə edirlər. Fərdi taksilərin isə buradan istifadəsinə imkan verilmir ki, bu da haqlı narazılıq doğurur.

**Mətbuat katibi bildirir ki, burada ayrı-seçkilik qoyula bilməz, yəni qanuni fəaliyyət göstərən istənilən taksi sürücüsü bu dayanacaqlardan istifadə edə bilər:** «Mühüm tədbirlər zamanı şəhərin mərkəzi hissəsində dövlət əhəmiyyətli yollarda taksi dayanacaqlarının fəaliyyəti məhdudlaşdırıla bilər. Əks halda, heç kim başqa bir sürücünün dayanacaqdan istifadəsini qadağan edə bilməz».

Qeyd edək ki, hazırda Bakıda 160-a yaxın taksi dayanacağı var. Bunların yarıdan çoxu qeydiyyatsızdır.

**N.Allahyarova deyir ki, sentyabrdan bu sahədə də yeniliklər olacaq:** "İndi Bakıda 79 adda qeydiyyatdan keçən və 81 adda qeydiyyatsız taksi dayanacağı fəaliyyət göstərir. Biz onların yerləşdikləri ərazilərin inzibati və şəhərsalma qaydalarına uyğunluğunu araşdırırıq. Tələblərə cavab verən dayanacaqlar saxlanılacaq. Əlverişli yerdə olmayan taksi dayanacaqları ləğv olunacaq».

Dayanacaqların qeydiyyatına gəlincə, mətbuat katibi deyib ki, indi qeydiyyatsız fəaliyyət göstərən taksi dayanacaqları tələblərə cavab verəcəksə, saxlanılacaq və qeydiyyata alınacaq.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri**, keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları (**kişi tibbi problemlər**)
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

## Elan

**Qəbələ rayonunun Vəndam kəndində gözəl bir meyvə bağı satılır. 60 sot sahəsi var, 86 ağac, qoz, şabalıd, qızıl əhmədi alması, fındıq, hamısı bar verir. Bağ dağ ətəyindədir, kvadratdır, qazı, işığı, suyu var. Çox gözəl bağdır. Xeyir iş səbəbindən çox münasib qiymətə satılır.**
**Əlaqə telefonu: (070) 335-90-15.**

## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34




## Peşəkar üzgüçü Sumqayıtda hovuzda boğuldu

**İyulun 17-də Sumqayıt şəhərində yerləşən "TERM" idman kompleksində 1991-ci il təvəllüdlü Ülkər Oqtaybəyli üzgüçülük hovuzunda boğularaq dünyasını dəyişib. İlkin ehtimala görə, hadisə nəzarətçilərin diqqətsizliyi üzündən baş verib.**

"TERM" idman kompleksinin meneceri Elnur Hüseynov azvision.az-a açıqlamasında bildirib ki, Ülkər Oqtaybəyli peşəkar üzgüçü olub.

Menecernin sözlərinə görə, dünyasını dəyişən xanımın ürəyində problem olub: "Ülkər xanım hər yay fəslində bizim kompleksə gəlirdi. Yəqin ki, xanımın ürəyində problem yaranıb. Çünki suda boğulan şəxs ən azından köməyə kimisə çağırar, qışqırardı. Bu hadisə boğulma olmadan baş verib. Hər gün olduğu kimi, nəzarətçilər orada olub. Nəzarətçilər xəbər tutan kimi dərhal xanımı sudan çıxarıblar. İlkin yardım göstərilib, süni nəfəs verilib. Daha sonra həkimlər gəlib. Ülkər xanım 3-4 ilə yaxındır ki, bizim idman kompleksində qeydiyyatda olub. Ülkər xanım professional üzgüçü olub".

Qeyd edək ki, baş vermiş hadisə ilə bağlı polis araşdırma aparır.

## 9-cu mərtəbədən yıxılan uşaq sağ qaldı

**Bakının Binəqədi rayonu ərazisində bədbəxt hadisə baş verib. Musavat.com-un verdiyi xəbərə görə, hadisə 7-ci mikrorayon ərazisində qeydə alınıb. 7 yaşlı Həsən Amanullayev 9 mərtəbəli binanın 9-cu mərtəbəsindən yıxılıb. Ağaclara ilişərək yerə düşən uşaq sağ qalıb.**

Lent.az-ın məlumatına görə, hadisədən dərhal sonra Kliniki Tibbi Mərkəzin reanimasiya şöbəsinə yerləşdirilən Həsənə kəllə-beyin travması diaqnozu qoyulub. Bundan başqa, onun bud, çanaq və qabırğalarında çoxsaylı sınıqlar var. Həkimlər 7 yaşlı oğlanın halında pisləşmə qeydə almasalar da, onun vəziyyətinin ağır olduğunu bildirirlər.

İlkin məlumata görə, həyətdə oynayan Həsəni anası evə gətirib. Bundan əsəbiləşən uşaq özünü 9-cu mərtəbədən atıb.

Faktla bağlı Binəqədi Rayon Prokurorluğunda araşdırma aparılır.

YENİ MÜSAVAT

Son səhifə

N 164 (6485) 29 iyul 2016



## Dünya anasının qarnından özü çıxan bu körpədən danışır

**İngiltərədə yaşayan və adı açıqlanmayan xanım qeysəriyyə üsulu ilə doğum edib.**

Milli.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, bu anlar lentə alınarkən həkimlərin diqqətini çəkən qeyri-adi məqam olub. Belə ki, yeni doğulan körpə əlləri və ayaqları ilə özünü itələyərək anasının qarnından çıxıb. Bunu görən həkimlər ağlayıb. Video sosial şəbəkələrə yüklənilib və qısa zamanda bütün dünyaya yayılıb.



## Gözmuncuğunu onunla əvəzləyirlər

**Artıq dünya miqyasında gözmuncuğunu əvəzləyən yeni bir aksessuar tapılıb. Bu, şans və qismətin simvolu sayılan balıqdan ilham alınaraq istehsal edilmiş boyunbağıdır. Bu əşya xüsusən Qərb ölkələrində getdikcə populyarlaşmağa başlayıb.**

Məşhurların dizayneri olan Ben Baller bugünlərdə 20 min dollara brilyantlarla bəzədilmiş "qol balığı" şəklində boyunbağı hazırlayıb. Onu da məşhur ulduzlardan birinin alması ilə balıqlı gözmuncuğu populyarlaşıb. Gözmuncuğuna rəqib olaraq göstərilən şanslı balıq boyunbağısını artıq bir çox məşhur markalar öz kolleksiyasına əlavə edib. "Claire's", "Asgold Jou", "Etsy" kimi markaların da belə gözmuncuğu var.

# Yaşınız 46-ya çatıbsa...

**İnsan həyatının gənclik mərhələsi ilə bağlı müxtəlif fikirlər var. Hər kəs gənclik və orta yaş dövrünün başlaması ilə əlaqədar fərqli yaş dövrünü göstərir. Bu gün də bu rəqəm mentalitet, ölkə və yaşayış tərzindən asılı olaraq dəyişir.**

Məsələn, Yaxın Şərqdə 14 yaşdan etibarən uşaqlar yetkinlik yaşına çatmış hesab olunurlar. Qərbdə isə 18-21 yaş yeniyetməlik hesab edilir. Britaniyalı mütəxəssislərin araşdırmasına görə, bu gün ingilislərin çoxu orta yaş mərhələsinin 55 yaşdan sonra başladığını müəyyənləşdirib. Onların fikrincə, 46 yaşdan sonra insan gəncliyini başa vurur, isveçlərdə bu rəqəm 34, yunanlarda isə 52-dir.



# Beyninizi oxuya bilərlər

**Beynimizin dərinliyində olan məlumatlar təhlükəsiz yerlərdədirmi? Bir qrup amerikalı və ingilis alimin fikrinə görə, bu sualın cavabı "xeyr" şəklindədir. Alimlər kompüter oyunları üçün istifadə edilən bir alət sayəsində kompüter istifadəçilərinin beynini oxuyaraq gizli məlumatlar əldə ediblər.**

Berkli (ABŞ), Oksford (Britaniya) və Cenevrə (İsveçrə) universitetlərinin mütəxəssislərindən ibarət bir qrup bu yolla insan beyninin hakerlənə biləcəyini deyir. "Emotiv" adlı cihaz əldən istifadə edilmədən oyun oynamağa kömək edən vasitədir.

Könüllülər qrupuna "emotiv" taxılıb və kompüter ekranında bankların adları, şəkilləri, tanıdıqları şəxslərin adları, şifrələr nümayiş etdirilib. Tanış obyektləri görən beyin P300 adı verilən özəl bir siqnal verib. Alimlər bu siqnalı izləyərək gizli məlumatları əldə ediblər. Sınaq 40 faiz uğurla nəticələnib. Qeyd edək ki, "emotiv"in satış qiyməti 299 dollar civarındadır.





## Kişilər qadınları seçəndə öncə bədəninə, sonra... baxırlar

**Kişilərin qadınları hansı parametrlərə görə seçməsi ilə bağlı müxtəlif araşdırmalar aparılıb. Son belə araşdırmalardan birinin nəticəsinə görə, kişilər qısamüddətli əlaqələr üçün seçdikləri qadınların daha çox bədən quruluşuna üstünlük verirlər. Lakin evləndikləri qadınlarda üz gözəlliyini əsas tuturlar.**

Texas Universitetinin (ABŞ) alimləri bu amili onunla əlaqələndirirlər ki, qadınların üz cizgilərinə görə onun hansı keyfiyyətlərə malik olması, nəsli davam etdirmək imkanlarını müəyyənləşdirmək daha asandır. Təcrübələrdə 375 qadın və kişi iştirak edib. Qadınların üzləri və bədən quruluşlarının müəyyənləşdirilməsi çətin həddə qədər aparılıb. Qadınlar gələcək ömür-gün yoldaşlarını karyera, iş və xarakter meyarlarına görə seçir.




**QOÇ** - İyulun sonuna doğru bürcünüz üçün daha çox maddi cəhətdən uğurlu keçməlidir. Bu gün həm də gözləmədiyiniz istiqamətlərdən təkliflər alacaqsınız. Düşünmədən razılıq verməyin.

**BUĞA** - Nə qədər sadə görünsəniz, ulduzların yanında hörmətiniz də bir o qədər çox olar. Sizə ehtiyac duyanlara kömək göstərin. Saat 16-dan sonra riskli işlərə aludə olmayın.

**ƏKİZLƏR** - İxtiyarınızda olan bu təqvimi sakit tərzdə başa vurmağa çalışın. Özünüzü gərginliyə sürükləməyin. Nəzərə alın ki, gün ərzində mənfi enerjili Ay bürcünüzdə olacaq. Qisas vaxtı deyil.

**XƏRÇƏNG** - Astroloji göstəricilərə inansaq, səhhətlə bağlı müəyyən problemləriniz gözlənilir. Odur ki, qidalanma zamanı ehtiyatlı olmalı, xəsarət törədə bilən işlərdən daşınmalısınız. Hündürlüyə çıxmayın.

**ŞİR** - Ailə-sevgi münasibətlərində vəziyyət qənaətbəxş olsa da, həmkarlarınızla aranızda soyuqluq yarana bilər. Bu amili nəzərə alıb verdiyiniz hər sözə əməl etməyə çalışın. Kimisə aldatmayın.

**QIZ** - Bütün vacib işlərinizi saat 16-ya qədər yekunlaşdırın. Əgər bu proses sonrakı müddətə qədər uzansa, münaqişəli situasiyalara cəlb oluna bilərsiniz. Qazanmaq ehtimalınız böyükdür.

**TƏRƏZİ** - Bu gün istənilən məsələdə risk etmək sizə zərər verə bilər. Odur ki, hansısa addımı atmazdan qabaq yüz ölçüb bir biçin. Müştərək fəaliyyətə başlamaq üçün bu təqvimdən yararlanın.

**ƏQRƏB** - İşlə bağlı yeniliklər yolunuzu gözləyir. Bu istiqamətdə sizə dəstək verənlər də tapılacaq. Günün ikinci yarısında birgə fəaliyyət planları haqqında götür-qoy etməyə dəyər.

**OXATAN** - Ən başlıcası özünüzü mübahisədən qorumaqdır. Bunu bacarsanız, narahatçılığınız olmayacaq. İşgüzar sövdələşmələrdə iştirak etmək, problemləri birgə həll etmək üçün uğurlu məqamdır.

**OĞLAQ** - Gərgin məqamlarla dolu olan bu günün ilk yarısını təmkinlə başa vurmağa çalışın. Bütün vacib işlərin həllini növbəti aya saxlayın. Konkret olaraq bu günsə, səhhətinizi qoruyun.

**SUTÖKƏN** - Əsas diqqəti fəaliyyətə yönəldin. Bəzi üzdəniraq dostlarınızla sonrakı münasibətləri konkretləşdirin. Xəyanəti bağışlamadığınız kimi, özünüz də etməyin. Uzaq yola çıxmaq məsləhət deyil.

**BALIQLAR** - Havalar nə qədər qaynar olsa da, fəaliyyətinizə ara verməyin. Çünki bütün astroloji qaynaqlar bu təqvimdə uğurlu karyeraya yetişmək şansınızdan xəbər verir. Təşəbbüskar olun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## İnsanlar yuxuda ən çox yıxılır və boğulur



**Dünyada insanların ən çox gördüyü yuxuların siyahısı hazırlanıb. Bunlardan birincisi yıxılmaq və boğulmaqdır. Bir çox insanlar yuxusunda heç olmasa bir dəfə də olsun yüksəklikdən yıxıldığını görüb. Bu yuxunu görən adam real həyatda özünü təhlükəsizlikdə hiss etmir. İkinci ən məşhur yuxu adamın özünün çılpaq olduğunu görməsidir. Bu yuxu daha çox reallıqda evlənmək üzrə olanlar tərəfindən görülür. Keçək digər populyar yuxulara. Bunlar çürük, əskik diş görmək, işdən qovulduğunu görmək, öldüyünü, yaxud da sevdiyiniz birinin öldüyünü görmək, imtahandan kəsilməkdir.**

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750